"TƏSDİQ EDİRƏM"
Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru
____________ Ş.Məlikova
"____" ____________ 2025-ci il




# AZƏRBAYCAN MİLLİ İNCƏSƏNƏT MUZEYİNİN 2025-Cİ İLİN YANVAR – İYUN AYLARI ÜZRƏ HESABATI

2025-ci ilin birinci yarısı Azərbaycan Milli İncəsənət Muzeyində keçirilmiş bir sıra sərgilər, tədbir və layihələrlə yadda qalmışdır. Onların sırasında Xalq rəssamları Sirus Mirzəzadə və Akif Əsgərovun, Əməkdar rəssam, ali dərəcəli bərpaçı Natiq Səfərovun yubiley sərgilərini, Əməkdar rəssam Ülviyyə Həmzəyevanın "Çağırış: zaman və məkan boşluğunda itmiş simvollar" adlı qrafika sərgisini, Novruz bayramına həsr olunmuş "Güllər ruzigarı" adlı sərgiləri qeyd etmək olar. Bununla yanaşı, Belarus Respublikası Milli İncəsənət Muzeyi və Belarus Respublikasının "Nesvij" Milli Tarix-Mədəniyyət Muzey-Qoruğu ilə əməkdaşlıq nəticəsində AMİM-də açılmış sərgilər beynəlxalq əlaqələr istiqamətində həyata keçirilmiş uğurlu layihələrdəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına uyğun olaraq görkəmli rəssam M.Q.İrəvaninin 200 illik yubileyi münasibətilə reallaşdırılmış sərgilər birinci yarımilin mühüm əhəmiyyətə malik tədbirlərindəndir. Belə ki, 2025-ci ilin aprel və may aylarında Qırğızıstan və Tacikistanda keçirilmiş Azərbaycan Mədəniyyət Günləri çərçivəsində muzeyin kolleksiyasından seçilmiş eksponatlar əsasında "Mirzə Qədim İrəvani: Şərq və Qərb sənət üslublarının qovşağında" adlı sərgilər təqdim olunmuşdur. 31 may 2025-ci il tarixində isə Ankara Rəsm və Heykəl Muzeyində "Mədəni yaddaşımızda Qərbi Azərbaycan" sərgisinin təntənəli açılış mərasimi keçirilmişdir. Eləcə də 18 May – Beynəlxalq Muzeylər Günü çərçivəsində 13-18 may tarixlərində keçirilmiş tədbirlərin əsas hissəsi dahi sənətkarın 200 illik yubileyinə həsr olunmuşdur.

2025-ci ilin iyun ayında "Azərbaycan təsviri sənəti: klassikadan postmodernizmə" adlı yeni ekspozisiyası ziyarətçilərin ixtiyarına verilmişdir.

Hesabat dövründə dövlət bayramları və digər əlamətdar günlərlə bağlı tədbir və mühazirələr keçirilmiş, "Uşaqlar üçün incəsənət tarixi", "Muzeydə mühazirə", "Muzeydə kino", "Muzeydə musiqi" kimi müxtəlif auditoriyalara yönəlmiş layihələr çoxsaylı tamaşaçıları muzeyə cəlb etmişdir. İl ərzində kiçik yaşlı uşaqlar, məktəblilər üçün mühazirə, tematik ekskursiya, ustad dərslərinin daxil olduğu maarifləndirici proqramlar təşkil olunmuşdur.

Azərbaycan Milli İncəsənət Muzeyindən keçirilən tədbir və layihələr mütəmadi olaraq KİV-də və muzeyin sosial media hesablarında işıqlandırılmışdır.

# * “Azərbaycan təsviri sənəti: klassikadan postmodernizmə” adlı yeni ekspozisiya




Azərbaycan Milli İncəsənət Muzeyində "Azərbaycan təsviri sənəti: klassikadan postmodernizmə" adlı yeni daimi ekspozisiya açılıb. Tematika üzrə bölünmüş zallarda realizmdən abstaktsionizmədək müxtəlif üslublarda yaradılmış tablolar yer alıb. Bakının ecazkar görüntülərini əks etdirən mənzərələr, Azərbaycanın görkəmli şəxsiyyətlərin portretləri, janr rəngkarlığı nümunələri, forma və rənglərlə ifadə edilmiş mücərrəd kompozisiyalar təsviri sənətimizin ötən əsrin ortalarından müasir dövrümüzə qədər keçdiyi inkişaf yolunu əks etdirir.

Tağı Tağıyev, Qafar Seyfullayev, Vəcihə Səmədova, Bədurə Əfqanlı, Asəf Cəfərov, Bəyim Hacıyeva, Nadir Qasımov, Mirnadir Zeynalov, Fərhad Xəlilov, Çingiz Fərzəliyev, Salhab Məmmədov, Sirus Mirzəzadə, Aydan Salahova və digər qocaman və yeni dövr rəssamlarının əsərləri Azərbaycan rəssamlığının ümumi panoramasını yaradır.

Rəngkarlıq ekspozisiyasını Azərbaycan heykəltəraşlıq sənətinin Cəlal Qaryağdı, Elmira Hüseynova, Natiq Əliyev, Sahib Quliyev, Teymur Rüstəmov kimi müxtəlif nəsilləri təmsil edən parlaq nümayəndələrinin klassik və abstrakt üslubda yaratdıqları əsərlər tamamlayır.

# * “Azərbaycan təsviri sənəti: klassikadan postmodernizmə” adlı yeni ekspozisiya






# *Beynəlxalq Sərgilər

# Ankara Rəsm və Heykəl Muzeyində “Mədəni yaddaşımızda Qərbi Azərbaycan” Sərgisi




Mayın 30-da Ankara Rəsm və Heykəl Muzeyində Azərbaycan Milli İncəsənət Muzeyinin (AMİM) kolleksiyasına aid əsərlərdən ibarət “Mədəni yaddaşımızda Qərbi Azərbaycan” sərgisinin açılışı olub. Mirzə Qədim İrəvaninin (1825-1875) 200 illik yubileyinə həsr olunmuş sərgi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Ankaradakı Azərbaycan Mədəniyyət Mərkəzi, Azərbaycan Milli İncəsənət Muzeyi və Ankara Rəsm və Heykəl Muzeyinin birgə təşkilatçılığı ilə keçirilir. Sərgi 18 iyul 2025-ci il tarixinədək ziyarətçilər üçün açıq olacaq.

# * Ankara Rəsm və Heykəl Muzeyində “Mədəni yaddaşımızda Qərbi Azərbaycan” Sərgisi





Sərginin açılış mərasiminə Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Səadət Yusifovanın rəhbərliyi ilə nümayəndə heyəti, Türkiyə Respublikası mədəniyyət və turizm nazirinin müavini Serdar Çam və nazirliyin digər yetkililəri, TÜRKSOY-un təmsilçiləri qatılılıblar.

# * Ankara Rəsm və Heykəl Muzeyində “Mədəni yaddaşımızda Qərbi Azərbaycan” Sərgisi







AMİM-nin direktoru Şirin Məlikova sərgi haqqında qonaqlara geniş məlumat verib.

# * Ankara Rəsm və Heykəl Muzeyində “Mədəni yaddaşımızda Qərbi Azərbaycan” Sərgisi





Sərgidə Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından 40-dək unikal sənət əsəri nümayiş olunur. Ekspozisiyada İrəvanda yaşayıb-yaratmış Mirzə Qədim İrəvaninin qrafik portretləri, vaxtilə İrəvan Sərdar sarayını bəzəmiş divar pannolarının surətləri nümayiş etdirilir. Konsepsiyaya uyğun olaraq sarayın füsunkar interyeri də süni intellekt vasitəsilə canlandırılıb.

Bununla yanaşı sərgidə rəssamlar İ.Zankovski və N.Qruşevin İrəvanın təsvir olunduğu əsərləri, görkəmli rəssam Bəhruz Kəngərlinin “Qaçqınlar” silsiləsi, Xalq rəssamı Hüseyn Əliyevin portretləri, eləcə də İrəvanın kübar saray mühitini əks etdirən dekorativ-tətbiqi sənət nümunələri yer alır. Qeyd edək ki, bu sərgi ilə ilk dəfə Türkiyədə M.Q.İrəvani irsi və Qərbi Azərbaycan təsviri və dekorativ sənəti geniş formatda təqdim edilir.

# * Ankara Rəsm və Heykəl Muzeyində "Mədəni yaddaşımızda Qərbi Azərbaycan" Sərgisi





Açılış mərasimində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin sifarişi ilə"Yaradıcı Azərbaycan" layihəsi çərçivəsində Mirzə Qədim İrəvaninin 200 illik yubileyi münasibətilə çəkilmiş "Cənnət yuxusu" bədii-sənədli filmi nümayiş olunub.

# * Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Mədəniyyəti Günləri, 20-25 aprel 2025



Aprelin 21-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində Q.Aytiyev adına Qırğızıstan Milli Təsviri Sənət Muzeyində "Sənət incilərində yaşayan Azərbaycan millli irsi" adlı sərginin açılışı baş tutub. Burada Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından seçilmiş əsərlərdən ibarət M.Q.İrəvaninin 200 illik yubileyinə həsr olunmuş "Mirzə Qədim İrəvani: Şərq və Qərb sənət üslublarının qovşağında" adlı ekspozisiya yer alıb. Ekspozisiyanın ana xəttini dahi sənətkarın ilk dəfə ölkə hüdudlarından kənarda nümayiş olunan əsərləri və onun yaşadığı dövrün Qacar üslubunda yaradılmış təsviri və dekorativ-tətbiqi sənət əsərləri təşkil edib. AMİM-nin direktoru Şirin Məlikova sərginin konsepsiyası və nümayiş olunan əsərlər haqqında qonaqlara geniş məlumat verib.

# * Qırğızıstanın paytaxtı Bişkek şəhərində Azərbaycan Mədəniyyəti Günləri



Mədəniyyət Günləri çərçivəsində aprelin 22-də Qapar Aytiyev adına Milli Təsviri Sənət Muzeyində Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Shirin Məlikova tərəfindən mühazirə təqdim olunub. “Mirzə Qədim İrəvani: Şərq və Qərb sənət üslublarının qovşağında” adlı mühazirə dahi sənətkarın 200 illik yubileyinə həsr edilib. Böyük maraqla dinlənilən məruzədə iştirakçılar Mirzə Qədim İrəvaninin həyat və yaradıcılığı, Azərbaycan təsviri sənətinin inkişafındakı mühüm rolu haqqında əhatəli məlumat əldə ediblər.

# Tacikistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri, 19-22 may 2025



Tacikistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində mayın 20-də bu ölkənin Milli Muzeyində “Azərbaycanın sənət incilərində yaşayan milli irsi” adlı sərginin açılışı olub. Mərasimdə Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli, Tacikistanın mədəniyyət naziri Matlubaxon Sattoriyen, Azərbaycanın Düşənbədəki səfiri Əlimirzamin Əskərov, eləcə də Türkiyə, Pakistan, Türkmənistan və digər ölkələrin səfirləri, mədənyyət və ictimai xadimlər iştirak ediblər.

Açılış mərasimində Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Şirin Məlikova çıxış edərək sərginin konsepsiyası haqqında söz açıb. Rəmzi açılışı bildirən lent kəsildikdən sonra Şirin Məlikova sərginin xüsusi hissəsini təşkil edən AMİM-nin M.Q.İrəvaninin 200 illik yubileyinə həsr olunmuş “Mirzə Qədim İrəvani: Şərq və Qərb sənət üslublarının qovşağında” adlı ekspozisiyası haqqında qonaqlara ətraflı məlumat verib.

# * Tacikistanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri



Sərgidə M.Q.İrəvaninin "Fətəli şah", "Zadəgan xanım", "Qacar şahzadəsi Vəcihulla Mirzə", "Əsgər" adlı qrafik portretləri, eləcə də Qacarlar dövrü rəssamlığının sevimli motivlərindən birini özündə əks etdirən "Qızılgül və bülbül" əsəri yer alıb. XIX əsr Azərbaycan rəssamlığının digər görkəmli nümayəndələri – Usta Qənbər Qarabaği, Mir Möhsün Nəvvabın gül və bülbül motivli qrafik rəsmləri, XVIII əsr Azərbaycan memarlığının incilərindən olan Şəki Xan sarayının divarlarını bəzəyən unikal rəsmlərin surətləri təqdim edilən dövrün aparıcı bədii-estetik xüsusiyyətlərini mükəmməliklə vurğulayıblar. Qalxan, dəbilqə, qolçaq və digər yaraq-əsləhə nümunələri, Bəhmən Mirzənin kitabxanasından olan şəxsi möhürlü "Dəvət" adlı dualar kitabı, üzərindəki təsvir və nəfis bəzəklərlə diqqəti cəlb edən qələmdanlar, "Nadir şah" adlı süjetli xalça, nəfis tərtibatlı arxalıq öz epoxasının ruhunu, zövqünü, saray estetikasını ifadə ediblər.

# * “Y.Pen, Y.Kruqer: Belarusda rəssamlıq təhsilinin baniləri” adlı rəngkarlıq və qrafika əsərlərindən ibarət sərgi




Martın 12-də Azərbaycan Milli İncəsənət Muzeyində “Y.Pen, Y.Kruqer: Belarusda rəssamlıq təhsilinin baniləri” adlı Belarus Respublikasının Milli İncəsənət Muzeyinin kolleksiyasından rəngkarlıq və qrafika əsərlərindən ibarət sərginin açılış mərasimi baş tutub. Sərgi Sankt-Peterburq Rəssamlıq Akademiyasının məzunları, müasir Belarusda peşəkar rəssamlıq təhsilinin baniləri, Vitebsk və Minsk şəhərlərində Rəsm və rəngkarlıq məktəblərinin təsisçiləri olmuş rəssam-pedaqoqlar, bir çox şagirdləri üçün həyatlarının ilk və ən vacib müəllimləri sayılan Yuri Penin anadan olmasının 170, Yakov Kruqerin 155 illiyinə həsr edilib.

# * “Y.Pen, Y.Kruqer: Belarusda rəssamlıq təhsilinin banilləri” sərgisi





Sərgidə Belarus Respublikası Milli İncəsənət Muzeyi tərəfindən ilk dəfə olaraq Azərbaycan Respublikasında muzeyin kolleksiyasından seçilmiş XIX əsrin sonu - XX əsrin ortalarına aid 61 rəngkarlıq və qrafika əsəri nümayiş olunub. Burada Y.Pen, Y.Kruqer və onların tələbələri olmuş Mark Şaqal, Mixael Kikoin, Belarus SSR-nin Xalq rəssamı İvan Axremçik, rəngkar və qrafiklər Lev Zevin, Mixail Kunin, Lev Leytman və digər məşhur rəssamların əsərləri yer alıb. Sərgi 4 may 2025-ci il tarixinədək davam edib.

# * “Y.Pen, Y.Kruqer: Belarusda rəssamlıq təhsilinin baniləri” sərgisi



Aprelin 23-də Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Belarus dili və mədəniyyəti mərkəzinin bir qrup nümayəndəsi Azərbaycan Milli İncəsənət Muzeyində təşkil olunmuş“Y.Pen, Y.Kruqer. - Belarusda rəssamlıq təhsilinin baniləri” adlı sərgini ziyarət ediblər. Onlara Belarus Respublikasının Milli İncəsənət Muzeyinin kolleksiyasından seçilmiş rəngkarlıq və qrafika əsərlərinin nümayiş etdirildiyi sərgi haqqında geniş məlumat verilib. Qonaqlar müasir Belarus incəsənətinin formalaşmasında böyük rol oynamış Vitebsk və Minsk rəssamlıq məktəbinin görkəmli nümayəndələrinin müxtəlif janrlarda yaratdıqları əsərləri maraqla izləyərək öz xoş təəssüratlarını bölüşüblər.

# * “Y.Pen, Y.Kruqer: Belarusda rəssamlıq təhsilinin banilər” sərgisi



Bakı Slavyan Universitetinin nəzdində fəaliyyət göstərən Belarus tədris - mədəniyyət mərkəzinin bir qrup nümayəndəsi “Y.Pen, Y.Kruqer. Belarusda rəssamlıq təhsilinin baniləri” adlı Belarus Respublikasının Milli İncəsənət Muzeyinin kolleksiyasından rəngkarlıq və qrafika əsərlərindən ibarət sərgini ziyarət ediblər. Onlara müasir Belarus incəsənətinin formalaşmasında böyük rol oynamış görkəmli rəssamların burada nümayiş olunan əsərləri haqqında geniş məlumat verilib.

# * “Nesvij” Milli Tarix-Mədəniyyət Muzey-Qoruğunun “Nesvij–dünya mədəniyyətinin irsi” adlı sərgisi




Mayın 19-da Azərbaycan Milli İncəsənət Muzeyində Belarus Respublikasının “Nesvij” Milli Tarix-Mədəniyyət Muzey-Qoruğunun “Nesvij–dünya mədəniyyətinin irsi” adlı sərgisinin açılışı baş tutub. Sərgi 19 may - 15 iyun 2025-ci il tarixlərində keçirlib.

# “Nesvij” Milli Tarix-Mədəniyyət Muzey-Qoruğunun “Nesvij–dünya mədəniyyətinin irsi” adlı sərgisi





# * "Saray ziyafətlərinin ənənələri" adlı ekskursiya






Mayın 20-də Azərbaycan Milli İncəsənət Muzeyində "Nesvij: dünya mədəniyyətinin irsi" sərgisi çərçivəsində "Saray ziyafətlərinin ənənələri" adlı ekskursiya keçirilib. Nesvij Muzey- Qoruğu əməkdaşlarının tamaşaçıların iştirakı ilə təqdim etdikləri interaktiv elementlərlə zəngin tematik ekskursiya, Belarus bayramları və tarixən formalaşmış saray ziyafətləri ənənələri: saray və xalq mətbəxi, knyaz ovlarının təşkili xüsusiyyətləri, həmçinin ənənəvi Belarus bayramı – Kolyada və ziyafətlərin ayrılmaz hissəsi olan rəqs sənəti haqqında maraqlı mövzuları əhatə edib.

# *Sərgilər

# * “Çağırış – zaman və məkan boşluğunda itmiş simvollar” adlı qrafika sərgisi




Yanvarın 22-də Azərbaycan Milli İncəsənət Muzeyində Əməkdar rəssam, Naxçıvan Rəssamlar Birliyinin sədri, millət vəkili Ülviyyə Həmzəyevanın “Çağırış – zaman və məkan boşluğunda itmiş simvollar” adlı qrafika sərgisi açılıb. Tədbirdə tanınmış ictimai- mədəni xadimlər, millət vəkilləri, ziyalılar və digər çoxsaylı qonaqlar iştirak ediblər. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə baş tutan sərgidə rəssamın 50-dən çox qrafika əsəri nümayiş olunub. Sərgi 28 fevral 2025-ci il tarixinədək davam edib.

# * "Çağırış – zaman və məkan boşluğunda itmiş simvollar" adlı qrafika sərgisi





Sərginin açılışında çıxış edən Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova, Xalq rəssamı Salhab Məmmədov, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, millət vəkilləri Hicran Hüseynova, Elnarə Akimova Ülviyyə Həmzəyevanın müasir Azərbaycan təsviri sənətində seçilən yaradıcılığa malik olduğunu, dərin məna, məzmun yükünə sahib əsərlərinin minilliklər ərzində formalaşmış zəngin sənət ənənələrimizdən güc aldığını vurğulayıblar.

# * 2 fevral - Gənclər Günü



"İRƏLİ" İctimai Birliyinin təşkilatçılığı ilə bir qrup gənc 2 fevral - Gənclər Günü ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyini ziyarət ediblər. Qonaqlar Əməkdar rəssam Ülviyyə Həmzəyevanın "Çağırış—zaman və məkan boşluğunda itmiş simvollar" adlı sərgisində nümayiş olunan əsərlərlə tanış olublar.

# * "Çağırış – zaman və məkan boşluğunda itmiş simvollar" adlı qrafika sərgisi çərçivəsində rəssamla görüş





Azərbaycan Milli İncəsənət Muzeyində "Çağırış- zaman və məkan boşluğunda itmiş simvollar" adlı sərgi çərçivəsində Əməkdar rəssam, Naxçıvan Rəssamlar Birliynin sədri, millət vəkili Ülviyyə Həmzəyeva ilə tələbələrin görüşü baş tutub. Tədbir rəssamın əsərləri nümayiş olunan sərgi zalında keçirilib. Ülviyyə Həmzəyeva görüş iştirakçılarına qrafik əsərləri, əsas ilham mənbələri, yaradıcılıq axtarışları və öz sənət yolunda qarşılaşdığı maraqlı məqamlar haqqında danışıb. Rəssam gənc nəslin nümayəndələrinə dəyərli məsləhətlər verib və milli mədəni irsimizin qorunub saxlanılması, təbliğinin vacibliyini, eləcə də vətənpərvərliyin önəmini qeyd edib.

# * Xalq rəssamı Sirus Mirzəzadənin “Xəyalların qanadlarında” adlı sərgisi




Yanvarın 31-də Azərbaycan Milli İncəsənət Muzeyində Xalq rəssamı, müasir təsviri sənətin tanınmış nümayəndələrindən biri Sirus Mirzəzadənin “Xəyalların qanadlarında” adlı fərdi sərgisinin açılış mərasimi keçirilib. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə baş tutan sərgidə rəssamın 100-ə yaxın rəngkarlıq və qrafika əsəri, eləcə də müəllifi olduğu monumental rəngkarlıq nümunələrinin fotoşəkilləri nümayiş etdirilib.

# * Xalq rəssamı Sirus Mirzəzadənin “Xəyalların qanadlarında” adlı sərgisi





# * Xalq rəssamı Sirus Mirzəzadənin “Xəyalların qanadlarında” adlı sərgisi





Ekspozisiyada qadın portretləri, “Adəm və Həvva”, “Rəssam və model” silsiləsindən obrazların xarakter və emosiyalarını ustalıqla verildiyi süjetli səhnələr, sənətkarın zəngin təxəyyül və yüksək bədii zövqünün ərsəyə gətirdiyi digər tablolar yer alıb. Nümayiş olunan onlarla rəngkarlıq, qrafika əsərində müəllifin interpretasiyasında özünəməxsus Şərq ab-havası, mifologiya, rəssamın genetik yaddaşından qaynaqlanan miniatür üslubu, eləcə də xalça, muğam kimi qiymətli mədəni irsimizin təzahürləri əksini tapıb.

# * Xalq rəssamı Sirus Mirzəzadənin "Xəyalların qanadlarında" adlı sərgisi





"Xəyalların qanadlarında" adlı sərgi çərçivəsində Xalq rəssamı Sirus Mirzəzadə ilə tələbələrin görüşü baş tutub. Görüş iştirakçıları sərgini ziyarət ediblər. Daha sonra tədbir auditoriyanın fəallığı ilə müşayiət olunan dialoq formatında davam edib. Tələbələr onları maraqlandıran çoxsaylı sualları Xalq rəssamına ünvanlayıblar. Sirus Mirzəzadə gənclərlə görüşdən məmnun qaldığını vurğulayaraq onlara təhsillərində və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

# “Güllər ruzigarı” adlı sərgi




Martın 14-də AMİM-də Novruz bayramına həsr olunmuş “Güllər ruzigarı” adlı sərgi açılıb. Sərgidə kolleksiyamızdan seçilmiş və əksəriyyəti ilk dəfə məhz burada nümayiş olunan 30-dan çox gül təsvirlərindən ibarət natürmort əsəri yer alıb. Ekspozisiyada ilk dəfə olaraq Salam Salamzadə, Tağı Tağıyev, Əbdülxalıq, Davud Kazımov, Tofiq Cavadov, Xalidə Səfərova, Nazim Babayev, İrina Koqnivitskaya və digər rəssamların natürmort janrında mükəmməl sənət əsərləri sərgilənib. Həmçinin Qorxmaz Sücəddinov, İbrahim Zeynalov, Akif Əsgərov, Sahib Quliyev, Teymur Rüstəmov kimi tanınmış heykəltəraşların da əsərləri yazı tərənnüm edən eksponatlar sırasında olub . Təqdim edilən iki QR kod ziyarətçilərə sərginin e-kataloqunu yükləmək və məmnuniyyət sorğusunda iştirak etmək imkanı verib.

# * “Güllər ruzigarı” adlı sərgi









# * "Güllər ruzigarı" adlı sərgi





Sərgidə Şəki Xan sarayının ecazkar çiçək təsvirli kompozisiyalarının surətləri də ilk dəfə nümayiş etdirilib. Usta Qəmbər Qarabağinin yaratdığı bu möhtəşəm sənət əsərlərinin surətləri XX əsrin 30-40-cı illərində Azərbaycan təsviri sənətinin inkişafına öz töhfələrini vermiş Vera Kvitko, Zinaida Boqoslovskaya-Kosiçkina tərəfindən köçürülüb. Xalq rəssamı Davud Kazımovun "Güllər"inin çərçivələri aşaraq sanki kətandan ayrılaraq real natürmorta çevrilməsi sərginin yaddaqalan məqamlarından olub.

# * Xalq rəssamı Akif Əsgərovun 85 illik yubileyinə həsr olunmuş "Ruhun sədası" adlı fərdi sərgi




Mayın 2-də Azərbaycan Milli İncəsənət Muzeyində Xalq rəssamı, tanınmış heykəltəraş Akif Əsgərovun 85 illik yubileyinə həsr olunmuş "Ruhun sədası" adlı fərdi sərgisi açılıb. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə keçirilən retrospektiv sərgidə muzey və əksəriyyəti ailə kolleksiyasından olmaqla ümumilikdə 60-dək dəzgah heykəltəraşlığı nümunəsi, eləcə də qrafik rəsmlər yer alıb. Ekspozisiya Akif Əsgərovun yaradıcılığının müxtəlif mərhələlərini əks etdirir. Sərgi 3 sentyabr 2025-ci ilədək ziyarətçilər üçün açıq olacaq.

# * Xalq rəssamı Akif Əsgərovun 85 illik yubileyinə həsr olunmuş “Ruhun sədası” adlı fərdi sərgi





# * “Ruhun sədası” adlı fərdi sərgisi



Ekspozisiya Akif Əsgərovun yaradıcılığının müxtəlif mərhələlərini əks etdirir. Təqdim olunan kiçik plastika nümunələrində onun sevimli mövzuları – obrazlar qalereyasında mühüm yer tutan qadın, balerina, yaşlı insan surətləri, həmçinin Nizaminin “Xəmsə”sinə həsr etdiyi relyeflər əksini tapıb. Bununla yanaşı, iş masası, layiq görüldüyü çoxsaylı təltiflər, fəxri adların nümayişi sənətkarın həyatı və fasiləsiz yaradıcılıq yolu, ümumilikdə sənət dünyası haqqında tamaşaçıda xüsusi təəssürat yaradır.

# * "Akif Əsgərovun yaradıcılığının bədii xüsusiyyətləri" adlı mühazirə






İyunun 19-da Azərbaycan Milli İncəsənət Muzeyində "Muzeydə mühazirə" layihəsi çərçivəsində "Akif Əsgərovun yaradıcılığının bədii xüsusiyyətləri" adlı növbəti maraqlı mühazirə dinləyicilərə təqdim olunub. Azərbaycan Rəssamlıq Akademiyası "Heykəltəraşlıq" kafedrasının baş müəllimi Roza Həsənovanın təqdimatında baş tutan mühazirə hazırda Xalq rəssamı Akif Əsgərovun muzeydə davam edən "Ruhun sədası" sərgisi çərçivəsində keçirilib.Məruzəçi tərəfindən görkəmli heykəltəraşın həyat yolu, yaradıcılıq mərhələləri, əsas mövzu dairəsi və sərgidə nümayiş etdirilən əsərləri haqqında geniş danışılıb. Həmçinin, Roza Həsənova Akif Əsgərovla bağlı xatirələrini bölüşüb. Sonda isə məruzəçi auditoriyanın suallarını cavablanıdırıb.

# * “Bərpa: keçmişə ehtiram, gələcəyə miras” adlı sərgi




İyunun 24-də AMİM-də Əməkdar rəssam, ali dərəcəli bərpaçı Natiq Səfərovun 65 illik yubileyinə həsr olunmuş “Bərpa: keçmişə ehtiram, gələcəyə miras” adlı sərgi açılıb. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə keçirilən sərgidə Natiq Səfərovun rəhbərliyi ilə restavrasiya olunmuş muzey kolleksiyasına aid 40-dan çox eksponat, onların bərpadan öncəki və sonrakı görüntülərinin əks etdirən foto və məlumatlar, eləcə də müəllifi olduğu rəngkarlıq əsərləri yer alıb. Natiq Səfərovun həm bərpaçı, həm də rəssam kimi çoxşaxəli yaradıcılığına işıq salan sərgi 25 sentyabr 2025-ci ilədək davam edəcək.

# “Bərpa: keçmişə ehtiram, gələcəyə miras” adlı sərgi





Açılış mərasimində Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Şirin Məlikova, Azərbaycan Rəssamlar İttifaqının sədr müavini, Xalq rəssamı Ağaəli İbrahimov, Xalq rəssamı Salhab Məmmədov, AMİM-nin Elmi- tədqiqat şöbəsinin müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Telman İbrahimov, Bakı şəhəri Ali Mələk Mikayıl kilsəsinin baş keşişi Mifodi Ata, Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov çıxış edərək yubiliyarı təbrik ediblər və Natiq Səfərovun bərpa sahəsindəki çoxillik fəaliyyətindən, mədəni irsə verdiyi əvəzolunmaz töhfələrdən danışıblar. Tədbirdə Natiq Səfərova Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilovun təbrik məktubu təqdim edilib.

# “Bərpa: keçmişə ehtiram, gələcəyə miras” adlı sərgi





XVII–XIX əsrlərə məxsus ikonalar, V.Serovun “Baronessa N.A. Meyendorfun portreti” və rəqəmsal animasiyası, T. Tağıyevin uzun müddət sərgilənməyən “Koroğlu” triptixi, Azərbaycan avanqardının tanınmış siması Tofiq Cavadovun tabloları, eləcə də öz ecazkarlığı ilə seçilən Azərbaycan xalçaları, Meysen çiniləri, Türkiyə incəsənətinə aid unikal sənət nümunələri “Bərpa: keçmişə ehtiram, gələcəyə miras” adlı sərginin maraqlı əsərləri sırasındadır.

# * “Bərpa: keçmişə ehtiram, gələcəyə miras” adlı sərgisi çərçivəsində ustad-dərs






İyunun 25-də Əməkdar rəssam, ali dərəcəli bərpaçı, AMİM-nin Elmi-bərpa şöbəsinin müdiri Natiq Səfərovun 65 illik yubileyinə həsr olunmuş "Bərpa: Keçmişə ehtiram, gələcəyə miras" adlı sərgi çərçivəsində sənətkarla görüş və ustad dərsi keçirilib. Natiq Səfərov görüş iştirakçılarına sərgilənən muzey eksponatlarının bərpa prosesi ilə bağlı geniş məlumatlar verib və yaddaqalan məqamları onlarla paylaşıb.

# *Beynəlxalq konfranslar

## * TÜRKSOY Muzeylər Birliyi ölkə koordinatorlarının ikinci toplantısı




8-9 aprel 2025-ci il tarixlərində Şimali Kipr Türk Cümhuriyyətinin Girnə şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən təşkil olunmuş TÜRKSOY Muzeylər Birliyi ölkə koordinatorlarının ikinci toplantısı keçirilmişdir. Tədbirdə ölkəmizi Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru Şirin Məlikova təmsil etmişdir.Türk dövlətləri nümayəndələrinin qatıldığı “II Beynəlxalq mədəni mirası qoruma və araşdırma simpoziumu” adlı tədbirdə muzeylər arasında təcrübə mübadiləsi və əməkdaşlıqların genişləndirilməsi istiqamətində geniş müzakirələr aparılıb.

# * "Müasir incəsənət məkanında süni intellekt : problemlər və perspektivlər" mövzusunda beynəlxalq elmi -nəzəri konfrans




11 aprel 2025-ci il tarixində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti İnformasiya Texnologiyaları İnstitutu və Azərbaycan Texniki Universiteti ilə birgə "Müasir incəsənət məkanında süni intellekt : problemlər və perspektivlər" mövzusunda beynəlxalq elmi -nəzəri konfrans təşkil edib. Konfransda müxtəlif incəsənət məkanlarında yüksək texnologiyaların tətbiqi, süni intellektin müasir incəsənətə təsiri və köməyi, yaradıcı proseslərdə rolu eləcə də bu sahədə gələcək imkanlar mövzusunda çıxışlar dinlənilib, fikir mübadiləsi aparılıb. Beynəlxalq tədbirə qatılan Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Şirin Məlikova öz çıxışında AMİM-nin multimedia layihələri haqqında geniş məlumat verib. Şirin Məlikova son illərdə muzeyin bütün sərgi layihələrinə rəqəmsal məzmunun daxil edilməsindən, süni intellekt imkanlarından, animasiya və video proyeksiyalardan istifadəyə xüsusi diqqət yetirilməsindən danışıb.

# * Hangzhou şəhərində UNESCO Muzeylər üzrə Ali Səviyyəli Forumunun Üçüncü Buraxılışı




23-25 aprel 2025-ci il tarixlərində Çin Xalq Respublikasının Hangzhou şəhərində UNESCO Muzeylər üzrə Ali Səviyyəli Forumunun Üçüncü Buraxılışı keçirilib. Beynəlxalq tədbirdə ölkəmizi Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Şirin Məlikova təmsil edib. Muzey direktorları, mədəniyyət və təhsil mütəxəssisləri, beynəlxalq təşkilatların nümayəndələri, rəqəmsal texnologiya üzrə ekspertləri bir araya gətirən qlobal forumda muzeylərin müasir cəmiyyətlərdəki rolu, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və muzey fəaliyyətində yeni texnologiyaların tətbiqi kimi mühüm mövzular müzakirə olunub.

# * Müstəqil Dövlətlər Birliyi: humanitar əməkdaşlığın yeni üfüqləri" adlı beynəlxalq forum




14-15 may 2025-ci il tarixlərində Tacikistan Respublikasının paytaxtı Düşənbə şəhərində MDB üzvü dövlətlərinin yaradıcı və elmi ziyalılarının XVIII forumu keçirilmişdir. "Müstəqil Dövlətlər Birliyi: humanitar əməkdaşlığın yeni üfüqləri" adlı beynəlxalq forumda Azərbaycan Milli İncəsənət Muzeyini AMİM- nin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəma Zeynalova təmsil edib.

# * Caypur ICOM-un Muzeylər və İncəsənət Kolleksiyaları üzrə Beynəlxalq Komitəsi -ICFA-nın "Hindistanda təsviri incəsənətin anlamı" mövzusunda İllik Konfrans







16-18 may 2025-ci il tarixlərində Hindistanın Caypur şəhərində ICOM-un Muzeylər və İncəsənət Kolleksiyaları üzrə Beynəlxalq Komitəsi -ICFA-nın "Hindistanda təsviri incəsənətin anlamı" mövzusunda İllik Konfransı keçirilib. Azərbaycan Milli İncəsənət Muzeyinin Tikmə bölməsinin müdiri Könül Zeynalova konfransa onlayn formatda qatılaraq "Azərbaycan Milli İncəsənət Muzeyinin tikmə kolleksiyası" adlı məruzə ilə çıxış edib. Təqdim olunan məruzədə fondun zəngin kolleksiyasında qorunan milli və dünya, o cümlədən hind incəsənətinə aid nəfis bədii tikmə nümunələri haqqında məlumat verilib.

# * Qazaxıstan Muzeylərinin III Beynəlxalq Konqresi Astana şəhəri







19-20 may 2025-ci il tarixlərində Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində Qazaxıstan Muzeylərinin III Beynəlxalq Konqresi keçirilib. Qazaxıstan Milli Muzeyində baş tutmuş konqres Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyi, TÜRKSOY - Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının dəstəyilə Mədəniyyət İşçiləri Forumu çərçivəsində təşkil olunub. Tədbirə Azərbaycan, Moldova, Özbəkistan, Rusiya, Türkiyə və Türkmənistandan gəlmiş bərpaçılar, muzey işçiləri, eləcə də elm və mədəniyyət sahəsində aparıcı mütəxəssislər və tədqiqatçılar qatılıblar. Konqresin əsas mövzusunu muzey eksponatlarının qorunması və bərpasının aktual məsələləri təşkil edib.

AMİM-nin Elmi-bərpa şöbəsinin bərpaçı-rəssamı Samir Talıbov Azərbaycan Milli İncəsənət Muzeyini beynəlxalq tədbirdə təmsil edərək “Azərbaycan Milli İncəsənət Muzeyində konservasiya və bərpa prosesləri” adlı məruzə ilə çıxış edib. O, həmçinin konqres çərçivəsində “Rəngkarlıq əsərlərinin texnologiyası: müasir problemlər” mövzusunda ustad dərsi keçib.

# * Drezden şəhərində “Şərqdə müharibədən sonrakı dövrdə Avanqardın yenidən mövqe qazanması” adlı beynəlxalq elmi konfrans






2–13 iyun 2025-ci il tarixlərində Almaniyanın Drezden şəhərində “Şərqdə müharibədən sonrakı dövrdə Avanqardın yenidən mövqe qazanması” (“Repositioning the Postwar Avant-Garde in the East”) adlı beynəlxalq elmi konfrans keçirilib. Tədbirdə İkinci Dünya müharibəsindən sonrakı dövrdə Şərqi Avropa, Mərkəzi Asiya ölkələri və Yaponiyada avanqard incəsənətin bərpası və onun müasir sənət kontekstindəki rolu müzakirə olunub. Beynəlxalq konfransda ölkəmizi Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Şirin Məlikova “Azərbaycanda nonkonformist incəsənət təcrübələri: Abşeron məktəbi” mövzusunda məruzə ilə təmsil edib.

# *Layihələr

# * Tanınmış ekspert Rupert Fezerstounun AMİM-də bərpa və konservasiya üzrə təlimi





3-7 fevral 2025-ci il tarixlərində Azərbaycan Milli İncəsənət Muzeyində Böyük Britaniya incəsənətinə aid əsərlərin elmi tədqiqi, həmçinin konservasiyası üzrə təlimin keçirilməsi məqsədilə layihə reallaşdırılıb. Layihə Britaniya Şurası ilə (British Council) mədəni əməkdaşlıq çərçivəsində həyata keçirilib. Elmi araşdırma və təlim Britaniyadan dəvət olunmuş rəngkarlıq əsərlərinin konservasiyası üzrə tanınmış ekspert Rupert Fezerstoun tərəfindən aparılıb. Rupert Fezerstoun 2001-2008-ci illərdə Vindzor sarayında Britaniya Kral Kolleksiyası üzrə rəngkarlıq əsərlərinin konservasiyasının rəhbəri, 2008-2021-ci illərdə Kembric Universitetinin nəzdindəki Fitzvilyam Muzeyində konservasiya işləri üzrə rəhbər, həmçinin Hamilton Kerr İnstitutunun direktoru vəzifəsində çalışmışdır.

# * Tanınmış ekspert Rupert Fezerstounun AMİM-də bərpa və konservasiya üzrə təlimi





Layihənin proqramına əsasən AMİM-nin Britaniya kolleksiyasının elmi tədqiqatı və onun qorunub saxlanılması üçün vacib olan məqamlar, mövcud vəziyyətinin müəyyənləşdirilməsi istiqamətində araşdırmalar aparılıb. Məhsuldar keçən müzakirələr və AMİM-nin Elmi-bərpa şöbəsinin əməkdaşları ilə birgə təlimlər gələcəkdə muzeyin fəaliyyətinə böyük töhfə verəcək. Layihə çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyinin Britaniya kolleksiyasına aid əsərlərin sərgiyə hazırlanması üçün planın işlənib hazırlanması üzrə təklif və tövsiyələr də verilib, eləcə də layihənin yekun nəticələri müzakirə olunub. Rupert Fezerstoun muzeyin əməkdaşları ilə yekün görüşdə layihədən çox məmnun olduğunu bildirərək, Azərbaycan incəsənətinin zənginliyini və özünəməxsusluğunu xüsusi vurğulayıb. O, gələcəkdə də bu kimi mühüm layihələrdə muzeyə öz töhfələrini verməyə hazır olduğunu bildirib.

# * Azərbaycan Milli İncəsənət Muzeyinin "A-Solutions Elektron Pul Təşkilatı" ilə əməkdaşlığı







Azərbaycan Milli İncəsənət Muzeyi ölkəmizin lider mobil operator şirkəti olan “Azercell Telecom” MMC-nin törəmə şirkəti olan “A-Solutions Elektron Pul Təşkilatı" ilə birlikdə mədəni irsimizi yeni nəsil ödəniş həlli - akart vasitəsi ilə yaşatmaqda davam edir!

Muzeyimizin kolleksiyasından seçilmiş görkəmli rəssamlarımız – Səttar Bəhlulzadə, Vəcihə Səmədova, Tahir Salahov, Mikayıl Abdullayev, Əyub Məmmədov, Rasim Babayev və digər sənətkarların sevilən əsərlərini özündə əks etdirən bu eksklüziv akart kolleksiyası milli təsviri sənətimizi geniş auditoriyaya təqdim edir.

Bu unikal dizaynlar A-Solutions Elektron Pul Təşkilatı, Visa və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə əməkdaşlığı çərçivəsində hazırlanaraq 2024-cü ilin dekabr ayında abunəçilərin istifadəsinə verilib.

# * Azərbaycan Milli İncəsənət Muzeyinin "A-Solutions Elektron Pul Təşkilatı" ilə əməkdaşlığı




İlk olaraq 30 rəqəmsal kart dizaynı təqdim olunmuşdur. Daha sonra dizayn edilmiş kartlar üzərində 15 əsər əksini tapmışdır. Yeni kolleksiyaya Azərbaycan rəssamlarının “Novruz”, “Ramazan” və “Yaz” mövzularında əsərləri  daxil edilib.

Azərbaycan Milli İncəsənət Muzeyinin "Azercell Telekom" MMC-nin törəmə şirkəti olan “A-Solutions Elektron Pul Təşkilatı" ilə bu əməkdaşlığı milli irsimizin geniş ictimaiyyət arasında təbliğ edilməsində böyük rola malikdir.

# * Azərbaycan Milli İncəsənət Muzeyinin "Nargis" jurnalı ilə əməkdaşlığı




"Nargis" jurnalının aprel sayının "Bling Bling" rubrikasında Azərbaycan Milli İncəsənət Muzeyinin "1920-80-ci illər Azərbaycan rəngkarlığı və qrafikası" ekspozisiyasında nümayiş olunan əsərlərdən ilhamlanaraq yaradılmış Azərbaycan rəngkarlığı və lüks zərgərliyin ecazkar qovuşmasını əks etdirən ziynət əşyaları təqdim olunub.

# * Riqa şəhərində “Salam, Novruz!” sərgisi






14 mart 2025-ci il tarixində Riqa şəhərində Azərbaycan, Qazaxıstan, Türkiyə və Özbəkistanın Latviyadakı səfirliklərinin birgə təşkilatçılığı ilə Novruz bayramı münasibətilə mədəni tədbir keçirilib.

Mədəni proqram çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyinin dəstəyi ilə Azərbaycanın görkəmli rəssamlarının Novruz bayramına həsr olunmuş əsərlərinin reproduksiyalarından ibarət “Salam, Novruz!” sərgisi təşkil olunub.

# *Tədbirlər

# * “Sevgi odası: Əli və Nino balı” adlı immersiv tamaşa






Yanvarın 13-də Azərbaycan Milli İncəsənət Muzeyində yazıçı Qurban Səidin dünyaca məşhur “Əli və Nino” romanının əsasında “Sevgi odası: Əli və Nino balı” adlı immersiv tamaşa keçirilib. İlqar Safatın rejissorluğu ilə hazırlanan bu unikal tamaşa Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktyorları tərəfindən təqdim olunub. Əli və Nino rollarında Murad İsmayılov və Səma Vəliyeva çıxış ediblər. Digər rollarda Azərbaycanın Əməkdar artistləri Maqsud Məmmədov, Salman Bayramov, Elmira Aslanova və Yelena Spitsına yer alıblar. Tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayev, xoreoqrafı Nigar Rzayevadır. Əsərin motivləri əsasında səhnələşdirmə isə Valentina Reznikovaya aiddir.

# * Aydan Salahovanın “Boşluq” adlı əsərinin təqdimatı






Fevralın 19-da Azərbaycan Milli İncəsənət Muzeyində müasir incəsənətin seçilən isimlərindən biri, rəssam, heykəltəraş, pedaqoq, qalereyaçı Aydan Salahovanın muzeyə hədiyyə etdiyi “Boşluq” adlı rəngkarlıq əsərinin təqdimat mərasimi keçirilib. Dialoq formatında təşkil olunan təqdimat mərasimində çıxış edən rəssam Aydan Salahova öz həyat və yaradıcılıq yolunun maraqlı məqamlarını dinləyicilərlə bölüşərək, 2022-ci ildə Bakıda yaratdığı “Boşluq” adlı əsəri haqqında bəhs etdi. O, bu əsəri öz kolleksiyasına daxil etdiyi üçün Azərbaycan Milli İncəsənət Muzeyinə təşəkkürünü bildirdi. Müəllif, həmçinin təqdimat mərasiminə qatılan qonaqları maraqlandıran sualları cavablandırdı.




# * “Sevgi odası: Əli və Nino balı” adlı immersiv tamaşa



Martın 11-də Azərbaycan Milli İncəsənət Muzeyində yazıçı Qurban Səidin dünyaca məşhur “Əli və Nino” romanının əsasında “Sevgi odası: Əli və Nino balı” adlı immersiv tamaşa növbəti dəfə keçirildi. Unudulmaz sevgi hekayəsindən bəhs edən, İlqar Safatın rejissorluğu ilə hazırlanmış tamaşa Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktyorlarının ifasında baş tutub. İştirakçıları sanki Şərq və Qərb atmosferinin, adət-ənənələrin, təmtərağın, fərqli dəyərlərin hökm sürdüyü zamana səyahətə aparan balda hər bir qonaq bu əsrarəngiz gecənin bir hissəsinə çevrilərək özünü əbədi sevgi hekayəsinin qəhrəmanı kimi hiss edib. Qeyri-adi hiss və duyğuların hökm sürdüyü gecənin iştirakçıları sonda muzeydən unudulmaz təəssüratlarla ayrılıblar.

# * “Sehrli xalçanın axtarışında” kitabının təqdimatı və müəlliflə görüş






16 aprel tarixində Azərbaycan Milli İncəsənət Muzeyində rəssam, kitab illüstratoru, yazıçı Katya Sokolova-Zızakın uşaqlar üçün qələmə aldığı, nəfis rəsmlərlə tərtib etdiyi “Sehrli xalçanın axtarışında” kitabının təqdimatı və müəlliflə görüş keçirilib. Təqdimatda müəllif tərəfindən kitabın yaranma hekayəsi haqqında iştirakçılara ətraflı məlumat verildi.

# * 29 aprel - Beynəlxalq Rəqs Günü



29 aprel - Beynəlxalq Rəqs Günü Azərbaycan Milli İncəsənət Muzeyində rəngarəng tədbirlə qeyd olunub. Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyasının Xoreoqrafiya şöbəsinin şagirdləri tərəfindən təqdim edilən konsert proqramı çox maraqlı məqamlarla yadda qalıb. Milli və dünya xalqlarına aid rəqs nömrələrinin uşaqların ifasında yüksək peşəkarlıqla təqdimatı tamaşaçıların davamlı alqışları ilə qarşılanıb.




# * 18 May- Beynəlxalq Muzeylər Günü

# * 18 May - Beynəlxalq Muzeylər Günü




18 May – Beynəlxalq Muzeylər Günü ilə əlaqədar olaraq 13-18 may tarixlərində Azərbaycan Milli İncəsənət Muzeyində silsilə tədbirlər keçirilmişdir. Bu tədbirlərin bir çoxu Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Mirzə Qədim İrəvaninin 2025-ci ildə 200 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncamınına müvafiq olaraq görkəmli rəssama həsr edilmişdir.

# * “Mirzə Qədim İrəvani - 200” adlı maarifləndirici proqram






13-18 may tarixlərində Azərbaycan Milli İncəsənət Muzeyində uşaqlar üçün “Mirzə Qədim İrəvani - 200” adlı maarifləndirici proqram keçirilib. Proqramda iştirak edən məktəblilər “Mirzə Qədim İrəvani yaradıclığı” adlı mühazirədə milli təsviri sənətin inkişafına öz əsərləri ilə əvəzsiz töhfələr vermiş rəssamın həyat və yaradıclığı ilə tanış olublar. Ustad dərslərində isə uşaqlar M.Q. İrəvaninin böyük məşhurluq qazanmış “Mah Tələtin portreti”nin kağız üzərində surətini yaradıblar.

# “Mədəni turizmin inkişafında muzeylərin rolu” adlı mühazirə







Mayın 15-də Azərbaycan Milli İncəsənət Muzeyində 18 May - Beynəlxalq Muzeylər Gününə həsr olunmuş tədbirlər çərçivəsndə “Mədəni turizmin inkişafında muzeylərin rolu” adlı mühazirə keçirilib. AMİM-nin direktor müavini Araz Osmanovun təqdimatında baş tutan mühazirədə Azərbaycan və dünya muzeylərinin turizm sahəsindəki əhəmiyyətli rolundan, turizmin növlərindən, muzeylərin mədəni və tarixi irsi qoruyaraq onu cəlbedici şəkildə təqdim etməsinin önəmindən ətraflı bəhs edilib.

# * "Milli dəzgah boyakarlığının banisi Mirzə Qədim İrəvaninin sənət yolu" adlı görüş və ustad dərsi






Mayın 16-da Azərbaycan Milli İncəsənət Muzeyində görkəmli rəssam Mirzə Qədim İrəvaninin 200 illik yubileyinə həsr olunmuş "Milli dəzgah boyakarlığının banisi Mirzə Qədim İrəvaninin sənət yolu" adlı görüş və ustad dərsi keçirilib. Burada rəssamın həyat və yaradıcılığı, Azərbaycan təsviri sənətindəki rolu haqqında mühazirə təqdim edilib. Ustad dərsində sənətkarın "Qızılgül və bülbül" adlı əsərinin reproduksiyası canlı olaraq fırçaya alınıb. Böyük maraqla qarşılanan tədbirin sonunda rəssamın bu nəfis gözəlliyə malik əsərinin surəti muzeyi ziyarət edən xarici dinləyiciyə hədiyyə olunub.

# * "Cənnət yuxusu" bədii-sənədli film







Mayın 17-də Azərbaycan Milli İncəsənət Muzeyində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə M. Q. İrəvaninin 200 illik yubileyi münasibətilə istehsal edilmiş "Cənnət yuxusu" bədii-sənədli filminin nümayişi və ekran əsərinin yaradıcı heyəti ilə görüş baş tutub. Filmin rejissoru, Əməkdar incəsənət xadimi Elxan Cəfərov böyük sənətkarın həyatı və parlaq yaradıcılıq yolunu işıqlandıran filmin vacib əhəmiyyəti, çəkiliş prosesi, əsas süjet xətti və digər məqamlardan söz açıb. Böyük maraqla qarşılanan filmin nümayişindən sonra auditoriyanın sualları cavablandırılıb.

https://medeniyyet.info.az/page/news/78559/Milli-Incesenet-Muzeyinde-Cennet-yuxusu-filmi-numayis-olunub.html

# * 18 May - Beynəlxalq Muzeylər Günü



18 May - Beynəlxalq Muzeylər Günü çərçivəsində 2025-ci ildə 200 illik yubileyi qeyd olunan görkəmli Azərbaycan rəssamı Mirzə Qədim İrəvaniyə aid guşə geniş ziyarətçi kütləsinə təqdim edilib. Bu məqsədlə rəssamın yaradıcılıq prosesi canlandırılıb və tamaşaçılar üçün onun məşhur əsərlərindən biri sayılan "Mah Tələt xanımın portreti"ndən ibarət fotozona yaradılıb.

# İon Deakoneskunun “Müsahibə” adlı kitabının təqdimatı






Mayın 18-də Azərbaycan Milli İncəsənət Muzeyində Azərbaycan Yazıçılar Birliyi, Azərbaycan Milli İncəsənət Muzeyi və Rumıniyanın ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı, “Fırat Boru” şirkətinin dəstəyi ilə görkəmli rumın şairi, Mihay Eminesku Akademiyasının prezidenti İon Deakoneskunun “Müsahibə” adlı şeir kitabının təqdimatı və poeziya gecəsi keçirilib.

# * “İnsan Hüquqları Aylığı”






Azərbaycan Milli İncəsənət Muzeyi və Sosial Xidmətlər Agentliyinin birgə əməkdaşlığı çərçivəsində hər il 18 may-18 iyun tarixıərində qeyd olunan “İnsan Hüquqları Aylığı” münasibətilə xüsusi tədbir həyata keçirilib. İyunun 4-ü baş tutan tədbirdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin Abşeron Sosial Xidmət Mərkəzinin sosial-psixoloji reabilitasiya proqramına cəlb olunmuş fiziki məhdudiyyətli uşaqlar və onların valideynləri iştirak ediblər. Proqramın əsas məqsədi uşaqların incəsənətlə ünsiyyətini artırmaq, onların sosial inteqrasiyasını və yaradıcılıq imkanlarını dəstəkləmək olub.

# * “Opera Günləri” layihə çərçivəsində Kristof Qlükün “Orfey və Evridika” opera-baleti






İyunun 12-də Azərbaycan Milli İncəsənət Muzeyində “Opera Günləri” adlı yeni layihə çərçivəsində Kristof Qlükün “Orfey və Evridika” opera-baleti tamaşaçılara təqdim olunub. Balet və opera sənətinin sintezini nümayiş etdirən bu səhnə əsəri tamaşaçılara dərin emosional yaşantılar və unudulmaz anlar bəxş edib.

# * “Muğam aləmi” 7-ci Beynəlxalq Musiqi Festivalı çərçivəsində konsert proqramı



İyunun 21-də Azərbaycan Milli İncəsənət Muzeyində Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin birgə təşkil etdiyi “Muğam aləmi” 7-ci Beynəlxalq Musiqi Festivalı çərçivəsində konsert proqramı təqdim olunub. Azərbaycanın tanınmış xanəndələrinin ustalıqla ifa etdikləri klassik muğam parçaları tamaşaçılar tərəfindən böyük maraq və alqışlarla qarşılanıb. Gecənin xüsusi qonaqlarından olan “Nehad El-Sayed” qrupunun (Misir–İsveçrə) ifasında muğamın fərqli instrumental çalarlarda təqdimatı isə sənətsevərlərə ecazkar musiqi dəqiqələri bəxş edib.

* "Muzeydə mühazirə"

# MÜHAZİRƏLƏR 2025




* 2025-ci ilin yanvar-iyun aylarında Azərbaycan Milli İncəsənət Muzeyinin "Muzeydə mühazirə" layihəsi çərçivəsində keçirilmiş mühazirələr vasitəsilə iştirakçılar muzeyin milli və dünya incəsənətini əhatə edən kolleksiyası haqqında məruzələri dinləmiş, məşhur sənət cərəyanları, görkəmli Azərbaycan və dünya rəssamlarının yaradıcılığı ilə daha yaxından tanış olmuş, çağdaş dövrdə muzey işinin təşkili ilə bağlı maraqlı məlumatlar əldə etmişlər.

# * “Təsviri sənətdə Müqəddəs Məryəm obrazı” adlı mühazirə







“Təsviri sənətdə Müqəddəs Məryəm obrazı” adlı mühazirə AMİM-nin Fond şöbəsinin Rəngkarlıq bölməsinin müdiri Şöhrət Məcnunova tərəfindən təqdim olunub. Mühazirədə orta əsrlər Bizans incəsənətində, rus ikonalarında, xüsusilə Qərbi Avropada İntibah dönəmində Leonardo da Vinçi, Rafael Santi kimi dahi sənətkarların əsərlərində Məryəm ana ikonoqrafiyasının başlıca cəhətləri vurğulanıb. Məruzəçi Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyası əsasında R.Santi, B.E.Murilyo, V.Kandinski və digər dünyaca məşhur rəssamların mövzunu əks etdirən əsərlərinin geniş bədii təhlilini aparıb.

# * "AMİM-nin İtaliya kolleksiyası" adlı mühazirə







16 yanvar 2025 – ci il tarixində AMİM-nin İnnovasiya şöbəsinin müdiri, sənətşünas Məhbarə Abbasova tərəfindən təqdim olunan mühazirədə muzeyin kolleksiyaslnda yer alan İtaliya incəsənətinə aid əsərlərin tarixi və bədii dəyərlərindən söhbət açılmışdır. Məruzədə İntibah dövründən başlayaraq barokko, neoklassisizmə qədər uzanan sənət üslüblarının inkişafı və səciyyəvi xüsusiyyətləri haqqında bəhs edilmişdir.

# * 20 Yanvar faciəsinin 35 illiyinə həsr olunmuş mühazirə







AMİM-nin Sərgi və tərtibat şöbəsinin müdiri, sənətşünas Əsəd Quliyevin təqdim etdiyi "Təsviri sənət əsərlərində 20 Yanvar mövzusunun əksi" adlı mühazirədə xalqın azadlıq uğrunda apardığı mübarizənin, sarsılmaz əzminin rəmzi olan bu hadisənin rəngkarlıq, qrafika və heykəltəraşlıq sahələrində əksindən, M. Abdullayev, B.Mirzəzadə, K.Nəcəfzadə, C.Rüstəmov, Ş.Abasov, F.Qulamov, E.Şahtaxtinskaya, N.Məmmədov, X.Əhmədov, S.Quliyev və digər tanınmış təsviri sənət nümayəndələrinin muzeyin kolleksiyasında saxlanılan əsərlərindən söz açılıb.

# “Əzim Əzimzadənin həyat və yaradıcılığı” adlı mühazirə







Yanvarın 30-da Azərbaycan Milli İncəsənət Muzeyində görkəmli Azərbaycan rəssamı Əzim Əzimzadənin 145 yubileyinə həsr olunmuş “Əzim Əzimzadənin həyat və yaradıcılığl” adlı mühazirə keçirilib. AMİM- nin Elmi-tətqiqat şöbəsinin böyük elmi işçisi Gülnaz Mustafayeva tərəfindən təqdim olunmuş mühazirədə sənətkarın maraqlı həyat yolu, yaradıcılıq mərhələləri və milli incəsənətə bəxş etdiyi töhfələrdən bəhs edilib.

# * “Azərbaycan Milli İncəsənət Muzeyi: tarixin dərinliyindən zamanın zirvəsinə kimi” adlı mühazirə






13 fevral 2025-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyində “Azərbaycan Milli İncəsənət Muzeyi: tarixin dərinliyindən zamanın zirvəsinə kimi” adlı mühazirə keçirilib. AMİM-in Mədəniyyət və təhsil şöbəsinin müdiri Səbinə Məlikova tərəfindən təqdim olunmuş mühazirədə Azərbaycan Milli İncəsənət Muzeyinin yaranma tarixindən, bugünədək keçdiyi inkişaf yolundan, milli və dünya mədəni irsini əhatə edən zəngin kolleksiyasından, həmçinin müxtəlif auditoriyalar üçün nəzərdə tutulmuş mədəni və təhsil proqramlarından bəhs edilib. Muzeyin bu gün zəngin irsimizi qoruyaraq gələcək nəsillərə çatdıran mədəniyyət müəssisəsi kimi əvəzsiz rolu xüsusi vurğulanıb. Mühazirə auditoriya tərəfindən böyük maraqla qarşılanıb.

# * "Muzey turizm tədbirlərinin obyekti kimi" adlı mühazirə






20 fevral tarixndə AMİM-də "Muzeydə mühazirə" layihəsi çərçivəsində növbəti mövzu "Muzey turizm tədbirlərinin obyekti kimi" olub. AMİM-nin direktor müavini Araz Osmanov tərəfindən təqdim olunan mühazirədə muzeylərin turizmdə rolu, onların cəlbediciliyinin artırılması üsulları və yerli muzeylərə daha çox ziyarətçilərin cəlb olunması istiqamətində müzakirələr aparıldı. İnteraktiv formada keçən mühazirədə iştirakçılarla mühazirəçi arasında maraqlı fikir mübadiləsi yer alıb. Muzeyimizi daha geniş auditoriyaya tanıtmaq və mədəni irsimizi qoruyaraq gələcək nəsillərə ötürmək üçün bu cür tədbirlərin keçirilməsinin vacibliyi xüsusi vurğulanan mühazirə dinləyicilər tərəfindən çox böyük marağa səbəb olub.

# * "Xocalı soyqırımı rənglərin dili ilə" adlı mühazirə






Azərbaycan Milli İncəsənət Muzeyində Xocalı faciəsinin 33-cü ildönümünə həsr edilmiş "Xocalı soyqırımı rənglərin dili ilə" adlı mühazirə keçirilib. Əvvəlcə soyqırım qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Daha sonra AMİM-nin Sərgi və tərtibat şöbəsinin müdiri, sənətşünas Əsəd Quliyev insanlığa qarşı yönəlmiş bu vandalizm aktının tarixindən, mövzunun Azərbaycan rəssamlarının yaradıcılığında əksindən ətraflı bəhs edib. Muzeyin kolleksiyasında yer almış çoxsaylı təsviri sənət nümunələrinin fotoları nümayiş olunaraq məruzəçi tərəfindən tarixi faciənin kontekstində geniş təhlil obyektinə çevrilib.

# "Azərbaycanın qadın rəssamları" adlı mühazirə






Martın 6-da Azərbaycan Milli İncəsənət Muzeyində Beynəlxalq Qadınlar Gününə həsr olunmuş mühazirə keçirilib. "Azərbaycanın qadın rəssamları" adlı mühazirə sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Rəssamlıq Akademiyasının dosenti Xanım Əsgərova tərəfindən təqdim olunub. Mövzu üzrə elmi-tədqiqat əsəri və bir çox məqalələrin müəllifi olan məruzəçi Azərbaycan təsviri sənətinin ötən əsrdəki inkişaf yoluna Q.Kaşıyeva, R.Topçubaşova, M.Rəhmanzadə, E.Şahtaxtinskaya, V.Səmədova, X. Səfərova, G.Mustafayeva, B.Hacıyeva, S.Manafova və digər onlarla məşhur və eyni zamanda adları sənətşünaslıq elminə kifayət qədər bəlli olmayan S.Əhmədli, N.Kaşayeva, Ə.Məmmədova kimi istedadlı qadın rəssamlarımızın yaradıcılığı kontekstində geniş nəzər salıb.

# * "Təsviri sənətdə Novruz mövzusu" adlı mühazirə






13 mart 2025-ci il tarixində qədim xalq bayramımız Novruza həsr olunmuş "Təsviri sənətdə Novruz mövzusu" adlı mühazirə AMİM-nin Sərgi və tərtibat şöbəsinin müdiri, sənətşünas Əsəd Quliyev tərəfindən təqdim olunub. Məruzəçi milli-mədəni irsimizin, etnoqrafiyamızın vacib hissəsini təşkil edən bu sevimli yaz bayramının, onun adət-ənənələri və simvollarının rəngkarlıq, qrafika, heykəltəraşlıq, eləcə də xalq sənətkarlığı nümunələrində əksindən bəhs edib.

# * “Frans Hals və onun təsiri ilə işləyən rəssamlar (Brauver, Ostade)” adlı mühairə






«Muzeydə mühazirə» layihəsi çərçivəsində növbəti mövzu dünya incəsənətinin görkəmli nümayəndəsi, məşhur holland rəssamı Frans Hals və onun təsiri ilə işləmiş rəssamlara həsr olunub. Muzeyin İnnovasiya şöbəsinin müdiri, sənətşünas Məhbarə Abbasova tərəfindən təqdim olunan məruzədə XVII əsr Hollandiya rəssamlığının əsas bədii xüsusiyyətləri, F.Halsın unikal üslubu və onun həmkarlarına göstərdiyi təsir haqqında ətraflı məlumat verilib. AMİM-nin kolleksiyasında yer alan Adrian Brauver, Adrian van Ostade, Mixil Yans van Mirevelt kimi görkəmli rəssamların əsərlərindən ibarət təqdimatın nümayiş olunduğu mühazirə dinləyicilər tərəfindən maraqla qarşılanıb.

# * “AMİM-nin kolleksiyasında impressionist rəssamların əsərləri” adlı mühazirə






10 aprel tarixində "Muzeydə mühazirə" layihəsi çərçivəsində növbəti mövzu AMİM-nin kolleksiyasında impressionist rəssamların əsərlərinə həsr olunub. Muzeyin İnnovasiya şöbəsinin müdiri, sənətşünas Məhbarə Abbasovanın təqdim etdiyi mühazirədə bir sıra məşhur və adları dünya sənət tarixinə az bəlli olan impressionist rəssamların əsərlərindən danışılıb. Ş.Milsandro, E.Jiran, L.Leman, İ. Kern, F.Adolfo, P. Lissak, F. Bazill kimi Avropa sənətkarlarının, həmçinin rus impressionizminin görkəmli nümayəndələri K. Korovin, V.Serov, L. Pasternakın, eləcə də bu üslubdan təsirlənmiş Azərbaycan rəssamlarının əsərləri mövzu kontekstində geniş işıqlandırılıb.

# * "Münəvvər Rzayevanın yaradıcılıq yolu" adlı mühazirə







Azərbaycan Milli İncəsənət Muzeyində "Muzeydə mühazirə" layihəsi çərçivəsində növbəti mövzu Əməkdar rəssam, Azərbaycan monumental heykəltaraşlığının ilk qadın nümayəndəsi kimi adını incəsənət tariximizə yazdıran Münəvvər Rzayevanın yaradıcılıq yolu haqqında olub. Muzeyin Sərgi və tərtibat şöbəsinin böyük elmi işçisi, sənətşünas Vaqif Muğallının təqdim etdiyi mühazirədə görkəmli heykəltəraşın həyat yolunu əks etdirən fotolarla bərabər, yaradıcılığının ilk dövrlərindən ömrünün sonuna kimi yaratdığı bir-birindən qiymətli, əvəzsiz sənət nümunələri - dövlət və ədəbi xadimlərə, əmək qəhrəmanlarına həsr edilmiş monumental heykəlləri, büst, portret və s. əsərləri işıqlandırılıb.

# * "1920–1980-ci illərdə Azərbaycan qrafika sənətinin inkişafı" adlı mühazirə






AMİM-də "Muzeydə mühazirə" layihəsi çərçivəsində təqdim edilən növbəti məruzə 1920–1980-ci illərdə Azərbaycan qrafika sənətinin inkişafına həsr olunub. sənətsevərləri qrafika dünyasının zəngin tarixçəsi ilə tanış edib. Mühazirə dinləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

# * AMİM-nin kolleksiyasında romantizm cərəyanına aid əsərlər






AMİM-nin İnnovasiya şöbəsinin müdiri Məhbarə Abbasova tərəfindən təqdim olunmuş mühazirədə XVIII əsrin sonu XIX əsrdə Avropada geniş yayılmış romantizm cərəyanının əsas bədii xüsusiyyətlərindən, Almaniya, Fransa, Rusiya romantizminin səciyyəvi cəhətlərindən bəhs edilib. Məruzədə, həmçinin muzeyin kolleksiyasında qorunub saxlanılan Fridrix Avqust fon Kaulbax, Vasili Tropinin, Karl Brullov, Konstantin Makovski, İvan Ayvazovski kimi görkəmli rəssamların əsərlərindən əhatəli söz açılıb. Maraqlı təhlillər və AMİM-nin ekspozisiyasına daxil olan əsərlərin fotoşəkillərindən ibarət təqdimat dinləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

# * “Oqtay Sadıqzadə yaradıcılığının parlaq obrazları” adlı mühazirə






Mayın 8-də Azərbaycan Milli İncəsənət Muzeyində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş “Oqtay Sadıqzadə yaradıcılığının parlaq obrazları” adlı mühazirə keçirilib. AMİM-nin elmi katibi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nuranə Səlimlinin təqdimatında baş tutmuş mühazirədə Xalq rəssamı, təsviri sənətin qrafika və rəngkarlıq sahələrində dəyərli əsərlər yaratmış Oqtay Sadıqzadənin həyat yolundan, yaradıcılığının özünəməxsus xüsusiyyətlərindən, bədii irsində önəmli yer tutan Ulu öndər Heydər Əliyevin, eləcə də muzeyin kolleksiyasında qorunub saxlanılan akademik Zərifə Əliyevanın, Ümummilli Liderin sifarişi ilə işlənmiş kraliça II Yelizavetanın, həmçinin Xurşidbanu Natəvanın, anası şairə Ümmügülsüm xanımın və digər parlaq simaların portretlərindən bəhs olunub.

# * “Əməkdar İncəsənət xadimi Elmas Hüseynovun yaradıcılığı” adlı mühazirə






Mayın 13-də Azərbaycan Milli İncəsənət Muzeyində tanınmış qrafika ustası Elmas Hüseynovun anadan olmasının 88-ci ildönümünə həsr edilmiş “Əməkdar İncəsənət xadimi Elmas Hüseynovun yaradıcılığı” adlı mühazirə keçirilib. Muzeyin Mədəniyyət və Təhsil şöbəsinin əməkdaşı, sənətşünas Günel Zaurun təqdim etdiyi mühazirədə rəsamın həyat və yaradıcılığından, Azərbaycan təsviri sənətinə verdiyi dəyərli töhfələrdən söz açılıb.

# * “Sənətin zirvəsində: Xalq Rəssamı Ömər Eldarov” adlı mühazirə






Mayın 22-də Azərbaycan Milli İncəsənət Muzeyində “Sənətin zirvəsində: Xalq Rəssamı Ömər Eldarov” adlı mühazirə keçirilib. Ustad sənətkarın qatıldığı mühazirə AMİM-nin Elmi-tədqiqat şöbəsinin elmi işçisi, sənətşünas Yeganə Mövsümova Şirəliyeva tərəfindən təqdim edilib. Sonda Xalq rəssamı, akademik Ömər Eldarov çıxış edərək təhsil aldığı illər, yaradıcılıq yolu ilə bağlı öz maraqlı xatirələrini bölüşüb, bu layihə çərçivəsində gənclərlə görüşməkdən məmnunluq duyduğunu ifadə edib və onlara uğurlar arzulayıb.

# * “Azərbaycan rəssamlığında Toğrul Nərimanbəyovun yeri və önəmi” adlı mühazirə






AMİM-də “Muzeydə mühazirə” layihəsi çərçivəsində növbəti mövzu görkəmli fırça ustası, Xalq rəssamı Toğrul Nərimanbəyovun 95 illik yubileyinə həsr edilmiş “Azərbaycan rəssamlığında Toğrul Nərimanbəyovun yeri və önəmi” adlı mühazirə olub. Muzeyin Sərgi və tərtibat şöbəsinin böyük elmi işçisi, sənətşünas Vaqif Muğallının təqdim etdiyi mühazirədə böyük sənətkarın keçdiyi zəngin həyat və sənət yolundan, özünəməxsus üslubundan, təsviri sənətimizə verdiyi əvəzsiz töhfələrdən, monumental və dəzgah rəngkarlığı sahəsində yaratdığı əsərlərdən, kolleksiyamızda yer tutan tablolarından geniş bəhs edilib.

# * “Sirdən hörülmüş gözəllik: türkmən xalçaları və xalça məmulatları” adlı mühazirə






İyunun 5-də “Muzeydə mühazirə” layihəsi çərçivəsində “Sirdən hörülmüş gözəllik: türkmən xalçaları və xalça məmulatları” adlı mühazirə təqdim olunub. AMİM-nin Tikmə bölməsinin müdiri Könül Zeynalova məruzədə minillik tarixə malik türkmən xalçaçılıq sənəti haqqında danışıb. O, salor, tekin, yomud və digər tayfaların yaratdığı xalça və xalça məmulatlarının texnoloji xüsusiyyətləri, bədii-estetik çalarları və ornamentlərin simvolikası haqqında ətraflı məlumat verib. Türkmən xalçalarının unikal naxışları, tayfa ənənələri və bu sənətin türk-müsəlman mədəniyyətindəki yeri vurğulanıb.

# * “Hessen-Darmştadtlı şahzadələr Azərbaycan Milli İncəsənət Muzeyinin inciləri sırasında” adlı mühazirə






İyunun 12-də AMIM-də “Hessen-Darmştadtlı şahzadələr Azərbaycan Milli İncəsənət Muzeyinin inciləri sırasında” adlı mühazirə keçirilib. AMİM-nin Qrafika fondunun böyük elmi işçisi Aysel Salamovanın təqdim etdiyi mühazirədə Hessen şahzadələrinin həyatı haqqında maraqlı məlumatlar verilib. Alman rəssamı Fridrix Avqust fon Kaulbax, fransız rəssamı Jan - Jozef Benjamen -Konstantın yaradıcılıqlarına toxunularaq onların fırçasına məxsus Hessen şahzadələri “İmperatriça Aleksandra Fyodorovna” və “Böyük knyaginya Yelizaveta Fyodorovna”nın portretlərinin tarixindən söhbət açılıb, əsərlərin bədii təhlili aparılıb və bu portretlərin muzey kolleksiyasındakı xüsusi dəyəri vurğulanıb.

# *Muzeydə təcrübə

# * Muzeydə təcrübə







Öz növbəsində muzey tərəfindən tələbələrə ixtisasları üzrə qazandıqları təcrübəni realizə etmək üçün imkan yaradılmışdır. Belə ki, 21-23 may tarixlərində isə ADMİU-nun IV kurs tələbələrinin təqdimatında AMİM-nin Mədəniyyət və təhsil şöbəsinin müdiri Səbinə Məlikovanın rəhbərliyi ilə mühazirələr dinlənilmişdir. Ləman Əliyeva XVII əsrin böyük sənətkarları Rembrandt, Vermeer və digərlərinin yaradıcılığından bəhs edən "Hollandiya incəsənəti", Tünzalə Rzayeva isə XVI-XVII əsrlərdə İtaliyada maniyerizm və barokko üslublarını əhatə edən "İşığa boyanmış yüzillik" adlı mühazirələrini dinləyicilərə təqdim ediblər.



# * Muzeydə təcrübə






Mayın 20-də isə “Muzeydə mühazirə” layihəsi çərçivəsində Humanitar Kollecin tələbəsi Könül Kərimli AMİM-nin böyük elmi işçisi Gülnaz Mustafayevanın rəhbərliyi ilə ingilis dilində “The Golden Age of Italian Renaissance Painting” (“İtaliya İntibahı “qızıl dövrü”nün rəngkarlığı”) mövzusunda məruzə ilə çıxış etmişdir.

# *Maarifləndirici proqramlar

# UŞAQLAR ÜÇÜN İNCƏSƏNƏT TARİXİ




Azərbaycan Milli İncəsənət Muzeyi məktəbəqədər və məktəbli uşaqları asudə zamanlarını dolğun və səmərəli şəkildə keçirmək üçün hər həftənin şənbə və bazar günləri "Uşaqlar üçün incəsənət tarixi" layihəsi təqdim edir.

Fərqli sivilizasiyalar, sənət cərəyanları, dünya və Azərbaycan incəsənətinin müxtəlif mərhələlərinə həsr olunan layihəyə rəngarəng maarifləndirici və əyləncəli proqramlar daxildir.

Uşaqlar burada mövzu üzrə maraqlı mühazirə və ekskursiya ilə yanaşı, şən viktorina və kvestlərdə iştirak edirlər, ustad dərslərində isə öz əlləri ilə müvafiq dövrə aid şah əsərlərin surətlərini yaradırlar.

# * Qədim Misir incəsənəti







Azərbaycan Milli İncəsənət Muzeyinn "Uşaqlar üçün incəsənət tarixi" adlı layihənin ilk proqramı qədim dünyanın ən zəngin sivilizasiyalarından biri olan "Qədim Misir incəsənəti"nə həsr olunub. Burada uşaqlar Misir incəsənətinin tarixi, əzəmətli piramidaları, heykəl və freskaları, geyim mədəniyyəti, musiqi və teatrı, eləcə də misirlilərin tarixə bəxş etdiyi ixtiralar və fironların sirli dünyasından bəhs edən mühazirəni dinləyib, ardınca mövzuya uyğun olaraq interaktiv ekskursiyada iştirak edib və kölgə tamaşasını izləyiblər. Daha sonra balaca ziyarətçilərimiz ustad dərsində papirus və firon maskasını hazırlayıb, əyləncəli kvestdə iştirak ediblər.

# * Qədim Misir incəsənəti





# * Antik Yunan İncəsənəti







"Uşaqlar üçün incəsənət tarixi" layihəsinin növbəti proqramı antik Yunanıstan incəsənətinə həsr olunub. Maarifləndirici proqramda yunan memarlığının şah əsəri -Afina Akropolu, antik dövrün məşhur heykəltəraşları Miron Və Fidinin yaradıcılığı, eləcə də geyim mədəniyyəti haqqında maraqlı məlumatları dinləyərək, mövzü ilə bağlı tematik ekskursiya keçiblər. Həmçinin muzeyin ekspozisiyasında sərgilənən qədim yunan incəsənətini əks etdirən eksponatlarla tanış olub, ustad dərsi zamanı bu mədəniyyətə məxsus simvolik nümunələri hazırlayıblar.

# * Antik Yunan İncəsənəti






# * Qədim Roma incəsənəti







"Uşaqlar üçün incəsənət tarixi" layihəsinin növbəti proqramı Qədim Roma incəsənətinə həsr olunub. Bu proqramda kiçik dostlarımız qədim dünyanın ən möhtəşəm sivilizasiyalarından birini - Roma incəsənətini kəşf edib, onlar eramızdan əvvəl və bizim eranın ilk əsrlərinə səyahət edərək antik Roma heykəltəraşlığı, monumental boyakarlıq nümunələri, Kolizey amfiteatrı, "bütün tanrıların məbədi" Panteon və memarlığın digər şah əsərləri ilə yaxından tanış olublar. Bununla yanaşı, uşaqlar Romanın məşhur imperatorları, qladiator döyüşləri haqqında maraqlı məlumatları dinləyərək, miflər aləminə baş vurub ,mövzü ilə bağlı tematik ekskursiya keçiblər. Ustad dərsi zamanı isə uşaqlar Roma incəsənətinə məxsus simvolik əsərləri hazırlayıb.

# * Qədim Roma incəsənəti






# * Uzaq Şərq incəsənəti







"Uşaqlar üçün incəsənət tarixi" layihəsi çərçivəsində «Uzaq Şərq incəsənəti» proqram çərçivəsində dostlarımız qədim tarixə malik Çinə və Yaponiyaya səyahət ediblər. Onlar Çin incəsənətinin sehirli dünyasına qərq olaraq qədim memarlığın möhtəşəm nümunəsi sayılan Çin səddi və digər məşhur abidələr, heykəltəraşlıq, rəssamlıq, keramika, kalliqrafiya sənətləri, o cümlədən ədəbiyyat, musiqi, ənənəvi geyim və çay mədəniyyəti haqqında mühazirəni dinləyərək, muzeyin Çin incəsənəti ekspozisiyasına ekskursiya edib və mövzu ilə bağlı kölgə tamaşasını izləyiblər. Növbəti hissəsində Yaponiya incəsənətinin müxtəlif sahələrini kəşf ediblər. Memarlıq, heykəltəraşlıq, rəssamlıq, keramika və s. yanaşı, onlar qədim yapon xalqının ənənəvi geyimləri, adət-ənənələri, özünəməxsus mətbəxi ilə tanış olublar.

# * Uzaq Şərq incəsənəti






# * Türkiyə incəsənəti






“Uşaqlar üçün incəsənət tarixi” layihəsi çərçivəsində Türkiyə mədəniyyətinə səyahət zamanı uşaqlar Türkiyə incəsənətinin zəngin və rəngarəng dünyasını kəşf ediblər. Onlar möhtəşəm memarlıq abidələri, naxışlarla bəzədilmiş keramika nümunələri, eləcə də miniatür sənətinin sükuta bürünmüş nağılları ilə tanış olub, Qədim Anadolu torpaqlarının ənənəvi geyimləri, adət-ənənələri və türk mətbəxinin özünəməxsus ləzzətləri ilə tanış oldular. Tematik və interaktiv ekskursiya zamanı isə balaca qonaqlarımız ekspozisiyamızda sərgilənən Türkiyə incəsənətini əks etdirən eksponatlar haqqında məlumat alıb və ustad dərsində Osmanlı və Anadolu mədəniyyətinə məxsus simvolik nümunələri hazırlayıblar.

# * Azərbaycan incəsənəti






“Uşaqlar üçün incəsənət tarixi” layihəsi çərçivəsində uşaqlar qədim və zəngin Azərbaycan mədəniyyəti ilə tanış olublar. Proqramda Azərbaycanın mədəni irsi – Qobustan qaya rəsmləri, xalçaçılıq, miniatür, metalişləmə, keramika sənətləri, musiqi alətləri (tar, kamança), muğam sənəti və digər incəsənət sahələrinə dair mühazirələr, interaktiv ekskursiyalar yer alıb. Ustad dərsi zamanı isə balacalar milli incəsənətimizə məxsus simvolik nümunələri hazırlamağı öyrəniblər.

# *Uşaqlar üçün vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin təlqini məqsədilə keçirlən maarifləndirici proqramlar

# * 20 Yanvar faciəsinə həsr olunmuş proqram







19.01.2025-ci il tarixində AMİM 160 nömrəli Klassik Gimnaziyanın və 54 saylı tam orta məktəbin şagirdləri üçün 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş proqram təqdim edib. Tədbirdə əvvəlcə ölkəmizin müstəqilliyi və torpaqlarımızın azadlığı uğrunda həyatlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Həmçinin proqramda məktəblilər "20 Yanvar Ümumxalq Hüzn Günü - Azərbaycan Milli İncəsənət Muzeyinin kolleksiyasından sərgi" adlı təqdimatı dinləyiblər. Daha sonra ustad dərsində şagirdlər mövzuya uyğun olaraq kağız üzərində qərənfil gülü təsvirini çəkiblər. Sonda uşaqlar interaktiv ekskursiyada iştirak etdilər.

# * Xocalı soyqırımının 33-cü ildönümü münasibətilə uşaqlar üçün vətənpərvərlik ruhunda maarifləndirici proqram







Azərbaycan Milli İncəsənət Muzeyində Xocalı soyqırımının 33-cü ildönümü münasibətilə uşaqlar üçün vətənpərvərlik ruhunda maarifləndirici proqram təşkil olunub. Əvvəlcə uşaqlar "Xocalı soyqırımı rəssamlarımızın əsərlərində" adlı mühazirəni dinləyiblər. Onlar mühazirədə AMİM-nin kolleksiyasında qorunub saxlanılan tanınmış rəssamlarımız tərəfindən işlənilmiş faciənin mahiyyətini əks etdirən, soyqırım qurbanlarının əbədiləşdirildiyi əsərlərlə yaxından tanış olublar. Daha sonra məktəblilər ustad dərsinə qatılaraq qanlı tariximizin kədər simvoluna çevrilmiş qərənfilin rəsmini çəkiblər. Proqram çərçivəsində uşaqlar AMİM-nin daimi ekspozisiyası və muzeydə davam edən sərgiləri də ziyarət ediblər.

# * 31 mart - Azərbaycanlıların soyqırımı günü ilə bağlı uşaqlar üçün vətənpərvərlik ruhunda maarifləndirici proqram






Azərbaycan Milli İncəsənət Muzeyində 31 mart - Azərbaycanlıların soyqırımı günü ilə bağlı məktəblilər üçün vətənpərvərlik ruhunda maarifləndirici proqram təşkil olunub. Proqramda 189-190 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdləri iştirak ediblər. Əvvəlcə uşaqlar "Qanlı tarixçə - 31 Mart Azərbaycanlıların Soyqırımı Günü" adlı mühazirəni dinləyiblər. Onlar mühazirədə AMİM-nin kolleksiyasında qorunub saxlanılan tanınmış rəssamlarımız tərəfindən işlənilmiş faciənin mahiyyətini əks etdirən, soyqırımı qurbanlarının əbədiləşdirildiyi əsərlərlə yaxından tanış olublar. Daha sonra məktəblilər ustad dərsinə qatılaraq qanlı tariximizin kədər simvoluna çevrilmiş qərənfilin rəsmini çəkiblər.

# * “9 May - Faşizm Üzərində Qələbə Günü” adlı maarifləndirici proqram






Azərbaycan Milli İncəsənət Muzeyində məktəbəqədər uşaqlar üçün ”9 May - Faşizm Üzərində Qələbə Günü“ adlı maarifləndirici proqram təşkil olunub. Proqramda Gənc Erudit Uşaq İnkişaf Mərkəzinin 5-6 yaşlı məktəbəqədər uşaqları iştirak ediblər. Əvvəlcə kiçik ziyarətçilər “Qələbə” adlı mühazirəni dinləyiblər. Daha sonra balacalar ustad dərsinə qoşularaq mövzuya uyğun öz rəsmlərini tamamlayıblar. Proqram çərçivəsində uşaqlar AMİM-nin daimi ekspozisiyasını gəzərək ekskursiyada iştirak ediblər.

# * "10 May Ümummilli Lider Heydər Əliyev - 102" adlı maarifləndirici proqram






Azərbaycan Milli İncəsənət Muzeyində məktəbəqədərlilər üçün "10 May Ümummilli Lider Heydər Əliyev - 102" adlı maarifləndirici proqram təşkil olunub. Proqramda Gənc Erudit Uşaq İnkişaf Mərkəzinin məktəbəqədərləri iştirak ediblər. Əvvəlcə kiçik ziyarətçilər "Uşaqların hamisi Ümummilli Lider -Heydər Əliyev" adlı mühazirəni dinləyiblər. Daha sonra balacalar ustad dərsinə qoşularaq mövzuya uyğun öz rəsmlərini tamamlayıblar. Proqram çərçivəsində uşaqlar AMİM-nin daimi ekspozisiyasını gəzərək ekskursiyada iştirak ediblər.

# * 28 May - Müstəqillik Gününə həsr olunmuş maarifləndirici proqramı






Azərbaycan Milli İncəsənət Muzeyi Kaspi İnternational School-un məktəbəqədər şagirdləri üçün 28 May - Müstəqillik Gününə həsr olunmuş maarifləndirici proqramını təqdim edib. Təqdim olunan maarifləndirici proqramın qonaqları olan kiçik ziyarətçilər ilk olaraq himn oxudular, vətənpərvərlik ruhunda "Müstəqillik Günü" adlı mühazirəni dinlədilər, interaktiv ekskursiyalara və mövzuya uyğun ustad dərslərinə qoşuldular.

# * "15 İyun - Azərbaycan Xalqının Milli Qurtuluş Günü" nə həsr olunmuş maarifləndirici proqram






Azərbaycan Milli İncəsənət Muzeyi "15 İyun - Azərbaycan Xalqının Milli Qurtuluş Günü" nə həsr olunmuş maarifləndirici proqramını uşaqlar üçün təqdim etdi. Budəfəki proqramın növbəti qonaqları Rüfət Məmmədov adına 269 Nömrəli Tam Orta Məktəbin 5-6 yaşlı məktəbəqədərliləri oldu.Maarifləndirici və əyləncəli proqramlarda balaca iştirakçılar ilk öncə himn oxudular, vətənpərvərlik ruhunda mühazirələr dinlədi, interaktiv və tematik ekskursiyalara qoşuldular və mövzuya uyğun maraqlı ustad dərslərinə qatıldılar.

# * “15 İyun - Azərbaycan Xalqının Milli Qurtuluş Günü” nə həsr olunmuş konsert





İyunun 12-də Azərbaycan Milli İncəsənət Muzeyində 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı keçirildi. Rafiq Babayev adına 25 nömrəli 11 illik musiqi məktəbinin Fortepiano şöbəsinin istedadlı şagirdlərinin təqdimatında baş tutan konertdə səslənən ifalar tamaşaçıların alqışları ilə qarşılanıb.

# * “26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü“nə həsr olunmuş maarifləndirici proqramı






Azərbaycan Milli İncəsənət Muzeyi “26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü“nə həsr olunmuş maarifləndirici proqramını uşaqlar üçün təqdim etdi. Qonaqlarımız Rüfət Məmmədov adına 269 Nömrəli Tam Orta Məktəbin 4-cü sinif məktəbliləri oldu. Maarifləndirici və əyləncəli proqramlarda balaca iştirakçılar ilk öncə himn oxudular, vətənpərvərlik ruhunda mühazirələr dinlədi, interaktiv və tematik ekskursiyalara qoşuldular və mövzuya uyğun maraqlı ustad dərslərinə qatıldılar.

# * AMİM-də Sosial Xidmətlər Agentliyi ilə birlikdə 26 İyun-Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününə həsr olunmuş tədbir






24 iyun 2025-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi ilə birlikdə 26 İyun-Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirdə 5-15 yaş arası Abşeron, Nərimanov, Sumqayıt,Sabunçu Sosial Xidmət Mərkəzlərindən fiziki məhdudiyyətli uşaqlar valideynləri ilə birlikdə iştirak edib. Proqram çərçivəsində Sosial Xidmətlər Agentliyinin tabeliyində fəaliyyət göstərən Sosial xidmət mərkəzlərinin "Parla" inkluziv mədəni kollektivinin istedadlı uşaqları bir-birindən gözəl çıxışlar ediblər. Daha sonra uşaqlar görkəmli Azərbaycan rəssamlarının muzey ekspozisiyasında sərgilənən əsərləri ilə tanış olublar. Tədbirin sonunda isə balacalar üçün ustad dərsi təşkil olunub. Əsas məqsəd fiziki məhdudiyyətli uşaqların incəsənətlə ünsiyyətini artırmaq, onların sosial inteqrasiyasını və yaradıcılıq imkanlarını dəstəkləmək olub.

# *Uşaqlar üçün milli-mənəvi dəyərlərin aşılanması məqsədilə əyləncəli və maarifləndirici proqramlar

# * "8 Martdır" adlı maarifləndirici proqram







07.03.2025-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyinin qonaqları olan Bakı İstanbul Liseyinin 1-ci sinif və Rixard Zorge adına 90 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdləri 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş "8 Martdır" adlı maarifləndirici proqrama qoşulublar.

# * 10 Mart - Milli Teatr Günü






Azərbaycan Milli İncəsənət Muzeyində uşaqlar üçün 10 Mart - Milli Teatr Günü və dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illiyi münasibətilə tamaşa və konsert proqramı təşkil olunub. Tədbirdə Ü.Hacıbəylinin "Arşın mal alan" operettasından səhnələr və "Günəş" adlı Azərbaycan xalq nağılı təqdim edilib. Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasının Teatr və Musiqi şöbələrinin şagirdlərinin ifasında təqdim olunan səhnəciklər tamaşaçılar tərəfindən çox böyük maraqla qarşılanıb. Yel çərşənbəsinə təsadüf edən maraqlı proqram Novruz bayramı ərəfəsində uşaqlara unudulmaz təəssüratlar bağışlayıb.

# * Od çərşənbəsi






Azərbaycan Milli İncəsənət Muzeyində Novruz bayramının müjdəçilərindən olan Od çərşənbəsi münasibətilə konsert proqramı təşkil edilib. Konsertin iştirakçıları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Abşeron Sosial Xidmət Mərkəzində reabilitasiya keçən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlar və onların valideynləri olublar. Qonaqlara öncə muzeyin ekspozisiyası haqqında məlumat verilib. Daha sonra onlar Azərbaycanın görkəmli bəstəkarlarının əsərlərindən ibarət konserti dinləyiblər, eləcə də gənc iştirakçıların ifasında xalq rəqslərini seyr ediblər.

# * Torpaq çərşənbəsi






Azərbaycan Milli İncəsənət Muzeyində uşaqlar üçün Torpaq çərşənbəsi münasibətilə konsert proqramı keçirilib. Tədbirdə milli rəqslər, xalq mahnıları ifa olunub, həmçinin tamaşaçılara bayram səhnəcikləri təqdim edilib. Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasının Xoreoqrafiya şöbəsinin şagirdlərinin ifasında təqdim olunan musiqi nömrələri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Ustad dərsində isə iştirakçılar rəngarəng "Novruz kompozisiyası" hazırlayıblar. Torpaq çərşənbəsinə həsr olunan maraqlı proqram Novruz bayramı ərəfəsində uşaqlara unudulmaz təəssüratlar bağışlayıb.

# * “Xalqımızın Milli simvolu-Novruz!” adlı əyləncəli və maarifləndirici proqram





Azərbaycan Milli İncəsənət Muzeyində Bakı Avropa liseyinin 1-ci sinif, T.İsmayılov adına 6 saylı məktəb-liseyinin 1-ci sinif, S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasınının 6-cı sinif, Aslan Muradov adına 84 nömrəli tam orta məktəbinin 4-cü sinif, 28 nömrəli tam orta məktəbinin 5-ci sinif, 27 nömrəli tam orta məktəbinin 4-cü sinif şagirdləri üçün “Xalqımızın Milli simvolu-Novruz!” adlı əyləncəli və maarifləndirici proqram təqdim edilib.

# * “15 Aprel Dünya İncəsənət Günü” adlı maarifləndirici proqram






Azərbaycan Milli İncəsənət Muzeyində məktəblilər üçün 15.04.2025 tarixində “15 Aprel Dünya İncəsənət Günü” adlı maarifləndirici proqram təşkil olunub. Proqramda 132-134 nömrəli liseyin 4-cü sinif şagirdləri iştirak ediblər. Əvvəlcə uşaqlar “Yüksək İntibah dövrü” adlı mühazirəni dinləyiblər. Daha sonra məktəblilər ustad dərsinə qatılaraq mövzuya uyğun “Mona Liza”nın portretini çəkiblər. Proqram çərçivəsində uşaqlar AMİM-nin daimi ekspozisiyasını gəzərək tematik və interaktiv ekskursiyada iştirak ediblər.

# “18 Aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü” adlı maarifləndirici proqram






Azərbaycan Milli İncəsənət Muzeyində məktəblilər üçün “18 Aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü” adlı maarifləndirici proqram təşkil olunub. Proqramda 126 saylı tam orta məktəbin 3-cü sinif şagirdləri iştirak ediblər. Əvvəlcə uşaqlar “Mədəni irsimiz - milli sərvətimiz” adlı mühazirəni dinləyiblər. Daha sonra məktəblilər ustad dərsinə qatılaraq mövzuya uyğun boşqab üzərində Qız qalasının rəsmini çəkiblər. Proqram çərçivəsində uşaqlar AMİM-nin daimi ekspozisiyasını gəzərək tematik və interaktiv ekskursiyada iştirak etdilər.

# 18 Aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə əlaqədar “Açıq qapı” günü



18 Aprel - Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən tarixi - mədəniyyət qoruqları və muzey müəssisələrində “Açıq qapı” günü elan olunub. Bu gün münasibətilə Azərbaycan Milli İncəsənət Muzeyinin növbəti qonaqları Şəhid Etibar Cəfərovun adını daşıyan 118 nömrəli tam orta məktəbin 9-cu sinif, Tofiq İsmayılov adına 6 saylı məktəb - liseyin 8-ci sinif, Ələkbər Eyvazov adına 275 nömrəli tam orta məktəbin 5-ci sinif, 55 nömrəli tam orta məktəbin 3-cü sinif, 132-134 nömrəli Təhsil Kompleksinin 9-cu sinif şagirdləri olub

# * ”23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” adlı maarifləndirici proqramı







Azərbaycan Milli İncəsənət Muzeyində Alı Mustafayev adına 202 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdləri, Bakı Avropa Liseyinin 1-ci sinif şagirdləri üçün ”23 Aprel Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü” adlı maarifləndirici proqram təqdim edilib. Proqrama qoşulan məktəblilər əvvəlcə “Azərbaycan ədəbiyyatının klassiklərinin obrazı milli təsviri sənətində“ adlı mühazirəni dinləyiblər. Daha sonra şagirdlər ustad dərsinə qoşularaq mövzuya uyğun rəsm çəkiblər.

# * “29 Aprel - Beynəlxalq Rəqs Günü” münasibətilə konsert proqramı






Azərbaycan Milli İncəsənət Muzeyində 29.04.2025-ci il tarixdə 189-190 nömrəli tam orta məktəbin 5-ci sinif şagirdləri üçün “29 Aprel - Beynəlxalq Rəqs Günü” münasibətilə konsert proqramı keçirilib. Tədbirdə konsert iştirakçıları üçün beynəlxalq və milli rəqslər təqdim edilib. Azərbaycan Milli Konservatoriyası nəzdində İncəsənət Gimnaziyasının Xoreoqrafiya şöbəsinin şagirdləri tərəfindən təqdim olunan rəqs nömrələri kiçik tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

# * 5 May - "Xalçaçı Günü" adlı maarifləndirici proqram






Mayın 2-də Azərbaycan Milli İncəsənət Muzeyində məktəblilər üçün 5 May - "Xalçaçı Günü" adlı maarifləndirici proqram təşkil olunub.Proqramda Bakı Modern Təhsil Kompleksinin 3-cü sinif şagirdləri iştirak ediblər. Əvvəlcə uşaqlar "Azərbaycanda xalçaçılıq sənətinin tarixi" adlı mühazirəni dinləyiblər. Daha sonra məktəblilər ustad dərsinə qatılaraq mövzuya uyğun öz xalçalarını toxuyublar. Proqram çərçivəsində uşaqlar AMİM-nin daimi ekspozisiyasını gəzərək tematik ekskursiyada iştirak ediblər.

# * “Azərbaycan Mili İncəsənət Muzeyi: Tarixin dərinliklərindən zamanın zirvələrinə”






Azərbaycan Milli İncəsənət Muzeyində məktəblilər üçün 06.05.2025 tarixində muzeyin 89 illiyinə həsr olunmuş maarifləndirici proqram təşkil olunub. Proqramda Cəfər Cabbarlı adına 161 nömrəli tam orta məktəbin 6-7-ci sinif şagirdləri iştirak ediblər. Uşaqlar “Azərbaycan Milli İncəsənət Muzeyi: tarixin dərinliklərindən zamanın zirvələrinə” adlı mühazirəni dinləyiblər. Sonra ustad dərsinə qoşularaq mövzuya uyğun öz rəsmlərini tamamlayıblar. Proqram çərçivəsində uşaqlar AMİM-nin daimi ekspozisiyasını gəzərək tematik və interaktiv ekskursiyada iştirak ediblər.

# * 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü






1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Milli İncəsənət Muzeyi və Azərbaycan Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin birgə əməkdaşlığı ilə muzeyin qarşısındakı parkda plener təşkil olunub.

# * “1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü” adlı proqram







“1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü” adlı proqram çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyi və "Be Kind” komandasının birgə əməkdaşlığı çərçivəsində mühazirə, tematik ekskursiya, ustad dərsi kimi maarifləndirici və yaradıcı proqramlar balaca qonaqlara təqdim olunub.

# * “Uşaqların nağıl dünyası” adlı əyləncəli-musiqili proqram






1 İyun- Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Milli İncəsənət Muzeyi və Azərbaycan Milli Konservatoriyasının nəzdində İncəsənət Gimnaziyasının birgə əməkdaşlığı ilə “Uşaqların nağıl dünyası” adlı əyləncəli-musiqili proqram təşkil olunub.

# * “Sabahın rəngləri” adlı klassik musiqi konsert






1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə AMIM-də “Muzeydə musiqi” layihəsi çərçivəsində “Sabahın rəngləri” adlı klassik musiqi proqramı baş tutub. İstedadlı musiqiçilər Fərəh Əliyeva, Camal Əliyev, Ayşən Umudova və Nuray Quliyeva öz ifaları ilə tamaşaçılara unudulmaz anlar yaşadıblar. Konsertdə Qara Qarayev, Niyazi, Vaqif Mustafazadə, Arif Məlikov, Tofiq Quliyev, Faiq Sücəddinov, İohann Ştrauss, Astor Piazzolla, Vaja Azaraşvili kimi tanınmış Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndirilib.

# “Onun ürəyi” adlı film






Azərbaycan Milli İncəsənət Muzeyinin 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə keçirdiyi tədbirlər çərçivəsində Samir Kərimoğlunun rejissoru olduğu nağıl-müzikl janrında “Onun ürəyi” adlı film nümayiş etdirilib.

# * Azərbaycan Milli İncəsənət Muzeyində məktəbəqədər və məktəbli uşaqlar üçün maraqlı və interaktiv yay tədris proqramları







Azərbaycan Milli İncəsənət Muzeyi məktəbəqədər və məktəbli uşaqlar üçün maraqlı və interaktiv tədris proqramları təqdim edir. "Teatr tamaşası" adlı proqramda uşaqlar həm tamaşalara baxacaq, həm də incəsənətin dərinliklərinə səyahət edəcəklər. Tədbirin əsas hissələrindən biri "Kölgə teatrının yaranma tarixi" mövzusunda keçiriləcək mühazirədir.

"Sevimli təsvirini yarat" adlı proqramda balacalar müxtəlif materiallar– kağız, kətan, ağac lövhə və stəkan-nəlbəki üzərində fərqli texnikalarla rəsmlər yaradacaqlar. Burada uşaqlar həm öyrənəcək, həm də əylənərək yaradıcılıqlarını inkaf etdirəcəklər.

# * Azərbaycan Milli İncəsənət Muzeyində məktəbəqədər və məktəbli uşaqlar üçün maraqlı və interaktiv yay tədris proqramları







"Dulusçuluq sənəti" proqramı vasitəsilə qədim keramika nümunələri ilə tanışlıq, gil yapma, boyama və digər dulusçuluq texnikalarını praktikada sınamaq imkanı qazanacaqlar.

"Xalça toxuma" proqramında Azərbaycan xalçaçılıq sənəti ilə tanış olacaq, xovsuz xalça növü olan palaz toxumağı öyrənəcək, viktorinalar və interaktiv ekskursiyalarda iştirak edəcəklər.

Proqramlarda mühazirə, ustad dərsləri, kvest, viktorina və tematik-interaktiv ekskursiyalar yer alır.

# * "Muzeydə musiqi"

# * "Əkinçi" kvarteti tərəfindən təqdim olunan "Fəslin sədaları" adlı konsert






Yanvarın 8 Azərbaycan Milli İncəsənət Muzeyində "Muzeydə musiqi" layihəsi çərçivəsində konsert proqramı keçirilib. "Əkinçi" kvarteti tərəfindən təqdim olunan "Fəslin sədaları" adlı konsertdə gənc və istedadlı musiqiçilərin ifasında dünya şöhrətli bəstəkarlar Y.Haydn və V.A.Motsartın məşhur əsərləri səsləndirilib. Musiqi axşamı tamaşaçıar tərəfindən çox böyük maraq və alqışlarla qarşılanıb. Tədbirdə 100 nəfər iştirak edib

# * “Xalq mahnıları” adlı konsert






Yanvarın 15-də dinləyicilər milli musiqi mədəniyyətimizin dəyərli hissəsini təşkil edən xalq mahnılarından ibarət konsert proqramına qatılıblar. Beynəlxalq Muğam Mərkəzi tərəfindən təqdim olunmuş konsertdə Əməkdar artist Sevinc Sarıyeva, istedadlı xanəndələr Abgül Mirzəliyev, Nisbət Sədrayeva, Murad Laçın, Günay İmamverdiyeva, Xasay Şıxıyev və Mirəli Mirizadənin ifasında tamaşaçıların sürəkli alqışları ilə yadda qalan mahnılar səsləndirilib. Səmray Əliyevanın aparıcılığı ilə keçən konsertdə ifaçıları tarda Rüstəm Müslümov, kamançada Elnur Salahov, balabanda Rəfael Əsgərov, qanunda Məhta Məhəmmədəlizadə, müşayiət ediblər. Tədbirdə 110 nəfər iştirak edib.

# * "Yeni istedadlar" adlı konsert proqramı






22 yanvar 2025-ci il tarixində "Yeni istedadlar" adlı konsert proqramı baş tutub. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə keçirilən konsertdə gənc musiqiçilərin ifasında unudulmaz musiqilər səslənib.

# * “Ruhun qidası - musiqi” adlı konsert






Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə hər həftə musiqisevərlərin görüşünə gələn “Muzeydə musiqi” layihəsi çərçivəsində növbəti konsert proqramı “Ruhun qidası - musiqi” adlanıb. Proqramda gənc musiqiçilər görkəmli dünya bəstəkarlarının unudulmaz əsərlərini səsləndiriblər.

# * "Üzeyir Hacıbəyli 140" adlı konsert






“Muzeydə musiqi” layihəsi çərçivəsində fevralın 19-da baş tutmuş konsert dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın banisi, böyük musiqişünas-alim Üzeyir Hacıbəylinin 2025-ci ildə qeyd edilən 140 illik yubileyinə həsr olunub. Beynəlxalq Muğam Mərkəzi tərəfindən təqdim edilmiş konsert proqramında Əməkdar müəllim Təranə Yusifovanın bədii rəhbərliyi ilə Cahangir Cahangirov adına Xor kollektivi və solo ifaçılar tərəfindən "Leyli və Məcnun" operası, "Arşın mal alan" musiqili komediyasından fraqmentlər, eləcə də görkəmli sənətkarın digər ölməz musiqi əsərləri səsləndirilib.

# * "Musiqi ruhu" adlı konsert




Martın 6-da Azərbaycan Milli İncəsənət Muzeyində ölkəmizdə ilk dəfə keçirilən Fikrət Əmirov I Ümumrespublika Festivalı çərçivəsində "Musiqi ruhu" adlı konsert proqramı baş tutub. AMİM və F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının birgə təşkilatçılığı ilə keçirililmiş konsertdə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə Gəncə Dövlət Filarmoniyasının solistləri tərəfindən dahi bəstəkarların musiqi əsərlərindən ibarət ifalar səsləndirilib.

# * “Hacıbəyovların musiqi dünyası” adlı konsert






12 mart tarixində “Muzeydə musiqi” layihəsi çərçivəsində növbəti konsert proqramı keçirilib. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “İxtisas" fortepiano kafedrası tərəfindən təqdim olunan “Hacıbəyovların musiqi dünyası” adlı konsertdə Xalq artisti, professor Ülviyyə Hacıbəyova, Xalq artisti, professor Gülnaz İsmayılova, Əməkdar artist, professor Töhfə Babayeva, Əməkdar artist, professor Elnarə Kəbirlinskaya, Əməkdar artist Fəridə Məmmədova və beynəlxalq müsabiqələr laureatları Nərgiz Salmanlı, Səbinə Quliyeva, Vurğun Vəkilov, Ümidə Abbasova və Samirə Babayevanın ifasında Ü.Hacıbəyli və digər görkəmli Azərbaycan və dünya bəstəkarlarının ölməz əsərləri səsləndirilib. Ecazkar musiqi gecəsinə qatılan tamaşaçılar öz dərin təəssüratlarını davamlı alqışlarla ifadə ediblər.

# * Barokko konserti






Martın 19-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Kamera Orkestri tərəfindən təqdim edilən konsertdə görkəmli bəstəkarlar S.Baxın IV Brandenburq konserti, Q.Donisettinin nəfəsli alətlər üçün simfoniyası, B.Martinunun - “La Revue De Cuisine” (caz suitasi), A. Əlizadənin “Aşıqsayaği” və “Cəngi” əsərləri səsləndirilib. Orkestrin dirijoru Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru, Əməkdar artist Əyyub Quliyevdin rəhbərliyi ilə baş tutan proqram musiqisevərlərin böyük marağı və sürəkli alqışları ilə müşayiət edilib

# * “Azərbaycan bəstəkar və xalq mahnılarında cazın rəngləri” adlı konsert






2 aprel 2025-ci il tarixində “Muzeydə musiqi” layihəsi çərçivəsində istedadlı musiqiçi Leyla Noirin təqdimatında baş tutan “Azərbaycan bəstəkar və xalq mahnılarında cazın rəngləri” adlı konsertdə Üzeyir Hacıbəylinin “Sənsiz”, Cahangir Cahangirovun “Aylı gecələr”, Tofiq Quliyevin “Əziz dost”, Səid Rüstəmovun “Hardasan”, Arif Məlikovun “İki qəlbin dastanı” baletindən “Komdenin arzuları”, xalq mahnısı “Laçın” və digər unudulmaz əsərlərə müraciət olunub.

# * "Bəstəkar mahnıları" adlı konsert






9 aprel 2025-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyində "Muzeydə musiqi" layihəsi çərçivəsində Beynəlxalq Muğam Mərkəzi tərəfindən "Bəstəkar mahnıları" adlı konsert proqramı təqdim olunub. Beynəlxalq Muğam Mərkəzinin solistləri və instrumental ifaçıları tərəfindən səsləndirilən görkəmli Azərbaycan bəstəkarlarının ölməz musiqi əsərləri gecəyə xüsusi rəng qatıb

# * "Üzeyir Hacıbəyli 140" adlı konsert






23 aprel 2025-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyində "Muzeydə musiqi" layihəsi çərçivəsində Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "İxtisas Fortepiano" kafedrasının professoru, Xalq artisti Ülviyyə Hacıbəyova və kafedranın dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nərgiz Salmanlının təşkilatçılığı ilə sinif konserti baş tutub.

# * “Meridian II” layihəsi






Aprelin 30-da Azərbaycan Milli İncəsənət Muzeyində fotorəssam, bir sıra beynəlxalq layihələrin kuratoru Əqdəs Bağırzadənin “Meridian II” layihəsi çərçivəsində musiqili proqram təqdim olunub. Konsertdə Əməkdar artist Fəridə Məmmədovanın (soprano) ifasında BMA-nın baş müəllimi Yuliya Kərimovanın (piano) müşayəti ilə görkəmli bəstəkarlar F.Listin, F.Şopenin, K.Şimanovski və A.Saygunun ölməz əsərləri səsləndirilib.

# * “Mədəniyyət. Bəşəriyyətin universal dili” adlı konsert






Mayın 7-də "Muzeydə musiqi” layihəsi çərçivəsində növbəti konsert proqramı baş tutub. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş konsertdə ADA Universitetinin “Musiqi klubu” tərəfindən “Mədəniyyət. Bəşəriyyətin universal dili” adlı rəngarəng musiqi proqramı təqdim edilib. Gənc və istedadlı ifaçılar tərəfindən görkəmli Azərbaycan və dünya bəstəkarlarının unudulmaz əsərlərinin səsləndiyi konsert dinləyicilər tərəfindən davamlı alqışlarla qarşılanıb.

# * Üzeyir Hacıbəylinin 140






Mayın 14-də "Muzeydə musiqi" layihəsi çərçivəsində dünyaşöhrətli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuş növbəti konsert proqramı keçirilib. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "İxtisas fortepiano" kafedrasının müəllimləri - Kəmalə Mirbabayeva, Arzu Məmmədova, Elnarə Kəbirlinskaya, Züleyxa Abdulla, Könül Axundova və s. iştirakı ilə baş tutan konsertdə Azərbaycan və dünya bəstəkarlarının unudulmaz əsərləri səsləndirilib.

# * "İtaliyaya səyahət" adlı konsert






21 may tarixində AMİM-də "İtaliyaya səyahət" adlı konsert proqramı baş tutub. Beynəlxalq müsabiqələr laureatları Anna Rasina və Daniil Kirillovun "Universum" fortepiano dueti tərəfindən təqdim olunan konsertdə A.Vivaldi, L. Bokkerini, Q. Donizetti, L. Kerubini, P. Maskanyi, C. Puççini, C. Rossini, C. Verdi, kimi italyan bəstəkarlarının dünyaca məşhur ölməz əsərləri ifa edilib. E. Maksimovun aparıcılığı ilə keçirilən musiqili axşam dinləyicilər tərəfindən gurultulu alqışlarla qarşılanıb.

# "Azərbaycanım" adlı konsert






Mayın 27-də Azərbaycan Milli İncəsənət Muzeyində sənətşünaslıq namizədi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Kamera ansambl" kafedrasının professoru Fəridə Əhmədbəyovanın tələbələrinin iştirakı ilə 28 May-Müstəqillik Gününə həsr olunmuş "Azərbaycanım" adlı konsert baş tutub. Konsert proqramında Avstriya klassik dövr bəstəkarı Josef Haydn, fransız və Norveç romantizm dövrü bəstəkarları Gabriel Faure və Edvard Grieg, fransız impressionist bəstəkarı Maurice Ravel, eləcə də görkəmli Azərbaycan bəstəkarları – Qara Qarayev, Arif Məlikov və Rauf Hacıyevin əsərləri səsləndirilib.

# * “Nəsillərdən-nəsillərə” adlı konsert proqramı






11 iyun 2025-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyində “Muzeydə musiqi” layihəsi çərçivəsində “Nəsillərdən-nəsillərə” adlı konsert proqramı təqdim olunub. Konsertdə Xalq artisti, Bakı Musiqi Akademiyasının professoru Ülviyyə Hacıbəyova, akademiyanın dosenti Nərgiz Salmanlı, beynəlxalq müsabiqələrin laureatları - Səbinə Quliyeva, Səidə Tağızadə və Mahir Tağızadə çıxış ediblər. Proqramda Azərbaycan və dünya bəstəkarlarının ölməz əsərləri səsləndirilib.

# * Gülcahan Güləhmədova-Martınovanın 100 illiyi






İyunun 18-də ölkəmizin ilk peşəkar qadın teatr rejissorlarından biri, Xalq artisti, Bakı Musiqi Akademiyasının professoru olmuş Gülcahan Güləhmədova-Martınovanın 100 illiyi münasibətilə konsert proqramı təqdim olunub. Konsertdə Xalq artisti Əvəz Abdullayev, Əməkdar artistlər- Afaq Abbasova,Anton Ferştandt, Səbinə Əsədova, Fərid Əliyev,İlahə Sadıxzadə,Fəridə Məmmədova,İlham Nəzərov, həmçinin beynəlxalq müsabiqələr laureatı Daniil Lirilov çıxış edib.

# * “Musiqi naxışları” adlı konsert






İyunun 20-də “Musiqi naxışları” adlı sinif konserti keçirilib. Tədbir sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nərgiz Salmanlının rəhbərliyi ilə baş tutub. Konsertdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “İxtisas Fortepiano” kafedrasının tələbələri çıxış ediblər.

# * “Ustada ithaf” adlı konsert






İyunun 25-də AMIM-də “Muzeydə musiqi” layihəsi çərçivəsində kamera musiqisi üzrə pedaqoq Gülarə İmanovanın xatirəsinə həsr edilmiş “Ustada ithaf” adlı konserti təqdim olunub. Musiqi axşamında Azərbaycanın Əməkdar artisti, ilk kontratenoru İlham Nəzərov tələbələri - Pərvanə Soltanova, Nuray İsmayılova, Kənan Rəhmanzadə, İsmayıl Əsədli, Ülvi Əhmədov və Cavidan Babazadə ilə birlikdə Bakı Musiqi Akademiyasının baş müəllimi Yuliya Kərimovanın müşayiəti ilə Azərbaycan və dünya bəstəkarlarının müxtəlif əsərlərini səsləndiriblər.

# “İstedadlı gənclərlə gələcəyimizə” adlı konsert






İyunun 26-da “Muzeydə musiqi” layihəsi çərçivəsində “İstedadlı gənclərlə gələcəyimizə” adlı konsert keçirilib. Dünyaşöhrətli Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın banisi Üzeyir Hacıbəylinin 140 illik yubileyi münasibətilə keçiriləcək konsert proqramında Bakı Musiqi Akademiyasının tələbələri çıxış edəcək. İstedadlı gənclərin ifasında Azərbaycan və dünya klassik musiqisinin unudulmaz nümunələri səsləndirilib.

# "Muzeydə kino"

# * "Faciənin fotosu" adlı sənədli film




"Muzeydə kino" layihəsi çərçivəsində carı ildə ilk film nümayişi Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə çevrilmiş 20 Yanvar faciəsinə həsr edilib.

18 – 19 yanvar 2025-ci il tarixlərində baş tutan "Faciənin fotosu" adlı sənədli filmdə qanlı hadisələri özündə yaşadan fotoşəkillər və onları fədakarlıqla lentə almış müəlliflərdən bəhs olunub.

Film Azərbaycan Fotoqraflar Birliyinin sifarişi ilə Art Max studiyasında lentə alınıb. İdeya müəllifi və rejissoru Fərqanə Qasımova, operatoru Ayaz Mikayılzadə, layihə rəhbəri isə Mirnaib Həsənoğludur.

# * "Canlı tablolar" adlı film




1-2 fevral 2025-ci il tarixlərində Azərbaycan Milli İncəsənət Muzeyində “Muzeydə kino” layihəsi çərçivəsində Xalq rəssamı Sirus Mirzəzadənin həyat və yaradıcılığına həsr olunmuş “Canlı tablolar “ adlı film nümayiş etdirilib. 2024-cü ildə lentə alınmış filmin ssenari müəllifi Nigar Qarayeva, rejissoru isə Vasif Məmmədzadədir.

# * "Müharibənin uşaqları" adlı sənədli film






Fevralın 26-da Azərbaycan Milli İncəsənətə Muzeyində Xocalı soyqırımının 33-cü ildönümü münasibətilə rejissor, Əməkdar incəsənət xadimi Şamil Nəcəfzadənin "Müharibənin uşaqları" adlı sənədli filmi nümayiş olunub. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə 2014-cü ildə "Yaddaş" sənədli filmlər studiyasında lentə alınmış filmin ssenari müəllifləri Şamil Nəcəfzadə və Sara Oğuz Nəzirovadır. Ekran əsərinin nümayişindən öncə filmin təsvir rejissoru və operatoru, Əməkdar incəsənət xadimi Nizami Abbasla görüş keçirildi. O, filmin mövzusu, çəkilişlər zamanı yaşanmış maraqlı məqamları tamaşaçılarla bölüşdü.